Xalqın qəzeti!

# Xalq qəzeti

№ 21 (30990) 4 fevral 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# “Zayed İnsan Qardaşlığı Mükafatı” Azərbaycan liderinin beynəlxalq nüfuzunu təcəssüm etdirir

## Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri

### *Əbu-Dabidə Müsəlman Ağsaqqalları Şurasının baş katibi ilə görüş*



**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əbu-Dabi şəhərində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olub.**

Məhəmməd Əbdülsalam Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini böyük məmnunluqla xatırladı. O, Prezident İlham Əliyevi "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi münasibətilə bir daha təbrik etdi.

Prezident İlham Əliyev təbrikə və yüksək mükafata görə minnətdarlığını bildirərək, Zayed Fondunun fəaliyyətini, xüsusilə Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsinin və bəşəri dəyərlərinin dünyada təşviq edilməsində oynadığı mühüm rolu yüksək qiymətləndirdi.

Azərbaycan Prezidentinin bu mükafata layiq görülməsi, həmçinin Roma Papası XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyibin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirildi.



## Azərbaycan–BƏƏ iqtisadi əlaqələri yeni mərhələyə yüksəlir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri çərçivəsində Əbu-Dabidə bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşüb. Dövlət başçıları söhbət zamanı ölkələrimiz arasında ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığını vurğulayaraq əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluğunu bildiriblər. Bu baxımdan dövlət başçılarının qarşılıqlı səfərlərinin, görüşlərinin münasibətlərin önəmi qeyd edilib.**

*(ardı 7-ci səhifədə)*



## Qədim Gəncə gəncləşir, müasirləşir, gözəlləşir

Səhifə ⇨ 8

## Koçaryanın “qələbə” eyforiyası Ermənistana ikiqat məğlubiyyət qazandırıb



Səhifə ⇨ 5

## Şərqlə Qərbin maraqlarını qovuşduran 2 lider



Səhifə ⇨ 3

## Milli insan kapitalı potensialı



Səhifə ⇨ 5

## Rusiya, Cənubi Qafqaz və “yumşaq güc”



Səhifə ⇨ 3

## Özgə torpaqlarında döyüşmək mənəvi köləlikdir



Səhifə ⇨ 6

## Gürcüstanda xarici qrantlara qarant çəkişmələri



Səhifə ⇨ 6

## Xəzər “yaşıl enerji” dəhlizi yeni regional əməkdaşlıq ünvanıdır



Səhifə ⇨ 7

# Prezidentlər Əbu-Dabidə “Sülh Qalxanı – 2026” birgə əməliyyat-taktiki təlimini izləyiblər









**Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən “Sülh Qalxanı – 2026” birgə əməliyyat-taktiki təlimini izləyiblər.**

Yaşayış məntəqəsi, dağlıq ərazi və dəniz mühitində keçirilən birgə təlimdə qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmi üzərində nəzarətin bərpası, terrorçu ünsürlərin zərərsizləşdirilməsi və girovların azad edilməsi, yaralıların təxliyəsi, yaşayış məntəqəsində ictimai təhlükəsizliyə təhdid yaradan iğtişaş və sabotaj xarakterli fəaliyyətlərin qarşısının alınması, eləcə də yanğınsöndürmə fəaliyyətləri üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır.

***AZƏRTAC***

# BMT-də WUF13-ə hazırlıq təqdimatları






**Bu il mayın 17–22-də “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusunda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) bir sıra yüksəksəviyyəli beynəlxalq tədbirlərdə təqdim olunub.**

Yanvarın 29-da BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Polşa və Zimbabve respublikaları BMT yanında Daimi nümayəndəliklərinin həmsədrliyi ilə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) dayanıqlı urbanizasiya və Yeni Şəhərsalma Gündəliyi üzrə Dostlar Qrupunun iclası keçirilib.

İclas Dostlar Qrupunun həmsədrlərinin açılış nitqləri ilə başlayıb. Ardınca BMT Baş katibinin müavini və UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax Yeni Şəhərsalma Gündəliyinin icrası üçün əsas fəaliyyət çərçivəsi, öhdəliklər, prioritetlər və hesabatlılıq mexanizmləri barədə təqdimatla çıxış edib.

UN-Habitat-ın Dostlar Qrupu dünyanın bütün regionlarını təmsil edən 50 dövlətin üzv olduğu platformadır və əsas məqsədi şəhərlərin inklüziv, təhlükəsiz, dayanıqlı və davamlı inkişafını təşviq etmək üçün üzv dövlətlər arasında dialoq və əməkdaşlığı gücləndirməkdir.

İclas çərçivəsində Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) ilə bağlı təqdimat edilib, forumun mövzusu, əsas tədbirləri və WUF13-ə hazırlıq prosesi haqda məlumat verilib.

Yanvarın 30-da Azərbaycan Respublikasının Hökuməti və UN-Habitat-ın birgə təşkilatçılığı ilə WUF13-ə həsr olunmuş diplomatik brifinq keçirilib. Tədbirdə BMT yanında akkreditə olunmuş 100-dən çox daimi nümayəndəliklərin rəhbərləri, müşahidəçilər və diplomatik korpusun üzvləri iştirak ediblər.

Brifinqdə açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müvəqqəti işlər vəkili, daimi nümayəndənin müavini Elvin Əşrəfzadə Azərbaycanın dayanıqlı şəhərsalma sahəsində qlobal dialoqa verdiyi töhfələri vurğulayıb və WUF13-ün müasir çağırışlara kollektiv cavabların formalaşdırılması baxımından əhəmiyyətini qeyd edib.

BMT Baş katibinin müavini və UN-Habitat-ın icraçı direktoru Anaklaudia Rossbax çıxışında bildirib ki, WUF13 dünyada 3 milyard insanı əhatə edən qlobal mənzil böhranının həlli üçün dialoqu genişləndirmək, tərəfdaşlıqları gücləndirmək və praktik həlləri təşviq etmək baxımından mühüm platformadır. O vurğulayıb ki, WUF13 tədbiri Yeni Şəhərsalma Gündəliyinin icrasına dəstək verərək şəhərlərin inklüziv, təhlükəsiz, davamlı və dayanıqlı inkişafına töhfə verəcək.

Brifinqdə WUF13 Milli Koordinatorunun müavini Gülşən Rzayeva çıxış edərək forumun mövzusu, məqsədləri və foruma hazırlıq prosesləri barədə məlumat verib. O, Azərbaycanın WUF13-də irəli sürdüyü yeni təşəbbüslər, ilk dəfə olaraq ölkə və hökumət başçılarının iştirakı ilə Zirvə Görüşünün təşkili, interaktiv və nəticəyönümlü formatda Nazirlər Görüşünün keçirilməsi, 35 min kvadratmetr ərazidə təşkil olunacaq “Urban Expo” sərgisindən danışıb.

Brifinq çərçivəsində UN-Habitat-ın Kanada ofisinin rəhbəri Omar Siddique WUF13-ün proqramı, əsas tədbirləri və iştirak imkanları barədə təqdimatla çıxış edib. Tədbir sual-cavab sessiyası ilə davam edib. Türkiyə, Qırğızıstan, Belarus, Pakistan, El Salvador və digər ölkələrin diplomatları WUF13 tədbirinin yüksək səviyyədə təşkil olunacağına Azərbaycana olan inamlarını ifadə ediblər.

***XQ***

# Konstitusiya Məhkəməsi Palatasının iclası

**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.**

İclasda Konstitusiyanın 130-cu maddəsinin IV hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 321-ci maddəsinin “Qeyd” hissəsinin şərh edilməsinə dair Baş Prokurorluğun sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 23-nə təyin olunmuş iclasında baxılacaq.

# Xuntaçıların məhkəməsi sabah davam etdiriləcək

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi fevralın 5-də davam etdiriləcək.**

Xatırladaq ki, məhkəmə prosesi 2025-ci il yanvarın 17-də başlayıb. Dekabrın 26-da məhkəmə kollegiyası müşavirəyə gedib.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək



məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***

# DTX mətbuat xidmətinin məlumatı



**Rusiya və Ukrayna arasında davam edən hərbi əməliyyatlarda iştirak etmiş Azərbaycan Respublikasının vətəndaşları məsuliyyətə cəlb olunublar.**

Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin tərkibində ölkə hüdudlarından kənarda hərbi münaqişələrdə iştirak edən vətəndaşlarımızın müəyyən edilərək hüquqi məsuliyyətə cəlb olunmaları istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

Əldə olunmuş məlumatlara əsasən, ötən müddət ərzində Rusiya və Ukrayna arasında davam edən hərbi əməliyyatlarda xeyli sayda Azərbaycan vətəndaşı iştirak edərək həlak olmuş, itkin düşmüş və ya yaralanmış, bəzilərinin isə əsirlikdə saxlanıldıqları təsbit edilmişdir.

Aparılmış araşdırmalarla Azərbaycan Respublikasının vətəndaşları - 1991-ci il təvəllüdlü Nəbiyev Real Eldəniz oğlu, 1993-cü il təvəllüdlü Hüseynov Faris Famil oğlu, 1994-cü il təvəllüdlü Məmmədov Ali Elnur oğlu və Mirhəşimli Murov Həsən oğlunun Rusiya və Ukrayna silahlı birləşmələrinin nəzarəti altında döyüş əməliyyatlarında iştirak etmələri sübuta yetirildiyindən, həmin şəxslər 2026-cı ilin yanvar ayında saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilmiş və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Bir daha vətəndaşların diqqətinə çatdırılır ki, belə silahlı münaqişələrdə iştirak etmək Azərbaycan Respublikasında cinayət məsuliyyəti yaradır və bundan sonra da xarici dövlətlərin ərazisində müvafiq cinayət əməllərinə yol verən şəxslərin məsuliyyət məsələsi qanunauyğun şəkildə təmin ediləcəkdir.

***XQ***

# Şərqlə Qərbin maraqlarını qovuşduran 2 lider

## *Siyasi praqmatizm və mükəmməl diplomatiya*

**Cari ilin fevral ayının əvvəlində Azərbaycanın xarici siyasətində baş verən hadisələr Cənubi Qafqaz və Fars körfəzi regionları arasında formalaşan yeni geosiyasi, geoiqtisadi oxun ən bariz təzahürüdür. Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri, orada keçirilən yüksək səviyyəli görüşlər və imzalanan sənədlər Azərbaycan dövlətinin strateji hədəflərinin miqyasını, həmçinin beynəlxalq münasibətlər sistemindəki yerini yenidən müəyyənləşdirir. Əbu-Dabidə BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüş Şərq və Qərb, Şimal və Cənub nəqliyyat-logistika, enerji dəhlizlərinin kəsişməsində qərarlaşan iki qüdrətli dövlət arasında mövcud əlaqələrin yeni mərhələyə qədəm qoymasının göstəricisidir.**



Müasir dünyada dövlətlərarası münasibətlərin xarakterini müəyyən edən əsas amillərdən biri kimi liderlər arasındakı qarşılıqlı etimad xüsusi yer tutur. İlham Əliyev və Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasındakı münasibətlər məhz səmimiyyət, etibarlılıq və uzaqgörənlik prinsipləri üzərində qurulub. Tərəflər arasında imzalanan sənədlərə, xüsusən də "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin (ADNOC) investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə diqqət yetirdikdə, iqtisadi əməkdaşlığın miqyası barədə aydın təsəvvür yaranır.

Görüş zamanı diqqətçəkən digər mühüm məqam hərbi-texniki əməkdaşlıq və təhlükəsizlik sahəsində atılan addımlardır. "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təlimləri iki ölkə arasındakı əlaqələrin, həm də dərin hərbi strateji məzmun daşıdığını sübut edir. Hərbi təlimlər, xüsusən də müasir döyüş taktikalarının, hibrid müharibə elementlərinin və yüksək texnoloji silahların tətbiqini nəzərdə tutan manevrlər Silahlı Qüvvələrin operativ uyğunluğunun artırılması baxımından əvəzsizdir. Azərbaycan Ordusunun 44 günlük müharibədə və sonrakı antiterror əməliyyatlarında qazandığı nadir döyüş təcrübəsi ilə BƏƏ-nin sahib olduğu yüksək texnoloji hərbi potensialın vəhdəti regionda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına xidmət edir.

Prezident İlham Əliyevin səfər çərçivəsində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə keçirdiyi görüş və dövlət başçısının "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi siyasi və iqtisadi uğurların mənəvi-ideoloji platforma ilə tamamlandığını göstərir. Mükafat Azərbaycan Prezidentinin multikulturalizm, dini tolerantlıq və mədəniyyətlərarası dialoq sahəsindəki qlobal xidmətlərinin beynəlxalq səviyyədə, xüsusən də İslam dünyasında yüksək qiymətləndirilməsinin təzahürüdür. Müsəlman Ağsaqqalları Şurası ilə əməkdaşlıq, Azərbaycanın İslam dünyasındakı nüfuzunu möhkəmləndirməklə yanaşı, ölkəmizin dinlərarası harmoniyanın qlobal mərkəzi kimi rolunu bir daha təsdiqləyir.

Bu proseslərdən sonra baş verə biləcək hadisələrin proqnozu region üçün olduqca nikbin perspektivlər vəd edir. İlk növbədə, Azərbaycan və BƏƏ arasında imzalanan sənədlərin icrası nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin həcmində kəskin artım müşahidə olunacaq. İnvestisiya əməkdaşlığının genişlənməsi, qeyri-neft sektorunda, xüsusən də turizm, kənd təsərrüfatı, logistika və yüksək texnologiyalar sahəsində yeni birgə müəssisələrin yaradılmasına gətirib çıxaracaq. "Sülh Qalxanı – 2026" təlimlərinin ardınca, hərbi sənaye kompleksində birgə istehsalat sahələrinin yaradılması, məsələn, zirehli texnikanın və ya dəniz patrul gəmilərinin modernləşdirilməsi üzrə layihələrin gündəmə gəlməsi istisna edilmir. Siyasi müstəvidə isə, BƏƏ-nin dəstəyi ilə Azərbaycanın Körfəz Əməkdaşlıq Şurası (GCC) ilə əlaqələrinin daha da dərinləşməsi, hətta institusional çərçivəyə salınması mümkündür.

Dövlət başçılarının görüşündə səsləndirilən fikirlər, xüsusən də strateji tərəfdaşlığa verilən önəm onu göstərir ki, Azərbaycan və BƏƏ qlobal çağırışlara qarşı vahid mövqedən çıxış etməyə hazırdırlar. İqlim dəyişmələri ilə mübarizə, su ehtiyatlarının idarə olunması və ərzaq təhlükəsizliyi kimi qlobal problemlərin həllində iki ölkənin birgə təşəbbüslərlə çıxış etməsi gözləniləndir. Əbu-Dabi görüşü, həmçinin Azərbaycanın beynəlxalq nüfuzunun artdığını, ölkəmizin qlobal miqyaslı məsələlərin həllində etibarlı tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Gələcək perspektivdə BƏƏ və Azərbaycanın üçüncü ölkələrdə, xüsusilə Afrika və Balkan regionunda birgə investisiya layihələri həyata keçirməsi ehtimalı yüksəkdir. Enerji, infrastruktur və kənd təsərrüfatı sahələrindəki təcrübələrini birləşdirən tərəflər qlobal cənub ölkələrində inkişafa dəstək verməklə yanaşı, öz iqtisadi təsir dairələrini də genişləndirə bilərlər.

"Sülh Qalxanı" təlimlərinin mütəmadi xarakter alması Xəzər hövzəsi və Fars körfəzi təhlükəsizlik sistemlərinin qarşılıqlı əlaqəsini təmin edəcək, terrorizm, narkotrafik və qeyri-qanuni miqrasiya kimi təhdidlərə qarşı mübarizədə daha çevik və effektiv mexanizmlərin yaradılmasına imkan verəcək. Həmçinin, BƏƏ-nin kosmik sənayedəki uğurları nəzərə alınaraq, gələcəkdə "Azərkosmos" ilə Əbu-Dabi Kosmik Agentliyi arasında peyk texnologiyaları və uzaqdan zondlama sahəsində əməkdaşlığın dərinləşməsi mükün olan məsələlərdən biridir.

Əbu-Dabi görüşlərində əldə olunan razılaşmalar Azərbaycan–BƏƏ münasibətlərində yeni eranın başlanğıcıdır. İki dövlət arasındakı əlaqələr artıq dərin strateji müttəfiqlik səviyyəsinə yüksəlib. İqtisadi praqmatizm, hərbi təhlükəsizlik maraqları və mənəvi-ideoloji yaxınlıq üzərində qurulan sözügedən ittifaq hər iki xalqın rifahına xidmət etməklə yanaşı, geniş bir coğrafiyada sabitliyin və inkişafın qarantına çevrilir. XRG şirkəti ilə imzalanan müqavilə Azərbaycanın enerji strategiyasının uğurla davam etdirildiyini, "Sülh Qalxanı" təlimləri isə ölkəmizin müdafiə qabiliyyətinin daim təkmilləşdirildiyini sübut edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursu milli maraqların maksimum dərəcədə qorunmasını, ölkə iqtisadiyyatının davamlı inkişafını və beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin möhkəmləndirilməsini təmin edən mükəmməl strategiyadır.

Gələcəkdə tərəflərin atacağı addımlar, xüsusilə süni intellekt və rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq münasibətlərin texnoloji bazasını gücləndirəcək. Hər iki ölkənin "Ağıllı şəhər" konsepsiyalarını tətbiq etməkdə maraqlı olması, şəhərsalma və infrastruktur layihələrində təcrübə mübadiləsini zəruri edir. Məsələn, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən yenidənqurma işlərində BƏƏ şirkətlərinin daha aktiv iştirakı "Ağıllı kənd" layihələrinin genişləndirilməsi gözlənilən nəticələrdən biridir. Eyni zamanda, turizm axınının artırılması üçün viza rejiminin daha da sadələşdirilməsi (və ya tamamilə ləğvi istiqamətində addımların atılması), birbaşa hava reyslərinin sayının artırılması, mədəniyyət günlərinin keçirilməsi xalqlararası ünsiyyəti intensivləşdirəcək. Bütün qeyd olunan məqamlar onu göstərir ki, Bakı və Əbu-Dabi arasındakı yaxınlaşma taktiki xarakter daşımır, əksinə, uzunmüddətli perspektivə hesablanmış, dərin köklərə və möhkəm təməllərə malik strateji seçimdir.

Beləliklə, Prezident İlham Əliyevin Əbu-Dabi səfəri Azərbaycanın ən uğurlu diplomatik gedişlərindən biridir. Səfərin hər bir detalı qarşılanma mərasimindən tutmuş imzalanan sənədlərin məzmununa və keçirilən görüşlərin səmimiyyətinə qədər iki qardaş ölkə arasında münasibətlərin sarsılmazlığını və gələcəyə inamı əks etdirir. Qlobal siyasi kuluarlarda diqqətlə izlənilən səfər Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində atılan qətiyyətli addımların davamıdır və qarşıdakı illərdə ölkəmizin beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə xidmət edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Rusiya, Cənubi Qafqaz və "yumşaq güc"

## *Yaxud "Kojokin intellektuallığı" nəyə hesablanıb?*

**Son günlər ictimai müzakirələrə səbəb olan və açıq mənbələrdə yayılan analitik sənəd Rusiyanın Cənubi Qafqaz siyasətinin metodoloji baxımından yeni sayıla biləcək mahiyyətini aydın şəkildə ortaya qoyur. Söhbət ölkənin Prezident Administrasiyasının xaricdə "yumşaq güc" alətləri və humanitar-siyasi təsir mexanizmlərinə cavabdeh olan yeni bölməsi üçün hazırlanmış daxili sənəddən gedir. Müəllifi Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun professoru Yevgeni Kojokin olan sənəddən.**



Məlumat üçün bildirək ki, Y.Kojokin əvvəllər Rusiya Xarici Kəşfiyyat Xidmətində çalışıb, 2002-ci ildən etibarən ölkənin Xarici İşlər Nazirliyinin xaricdəki soydaşlarla iş üzrə komissiyasının üzvüdür. O, diaspor icmalarının sosioloji və davranış analizləri üzrə ixtisaslaşıb. Yəni, adam təsadüfi biri sayıla bilməz. Hazırladığı mətn də publisistik deyil, tətbiqi-idarəetmə xarakteri daşıyır və özündə fundamental dövlət siyasətinin institusional məntiqini əks etdirir.

Beləliklə, sənəddə Kremlin Cənubi Qafqaz ölkələrində, xüsusilə rusdilli əhali üzərindən humanitar-siyasi təsir mexanizmlərini gücləndirmək niyyəti sistemli şəkildə əksini tapır. Məhz bu yanaşma Rusiyanın xarici siyasətində haqqında söz açdığımız "yumşaq güc" alətlərinə verdiyi xüsusi önəmi təsdiqləyir. Vurğuladıq ki, məsələ ilk baxışdan yenilik kimi qiymətləndirilə bilər. Çünki zaman-zaman Kremlin sırf hərbi gücə üstünlük verdiyini bilirik. Görünür, Kojokin zamanla ayaqlaşmağın zəruriliyini anlayıb. Amma məsələ təkcə bu şəxslə bağlı deyil. Zamanla ayaqlaşmaqdan söz düşmüşkən isə bir məqam da var ki, onu sonda açıqlayacağıq.

Bəli, Kojokinin müəllifi olduğu mətn Rusiya Prezident Administrasiyasının xaricdə humanitar və siyasi təsir alətlərinə cavabdeh olan yeni struktur bölməsi üçün hazırlanmış daxili sənəd kimi dəyərləndirilir. Mətnin məzmunu göstərir ki, burada söhbət təsadüfi yanaşmadan deyil, uzunmüddətli və planlı dövlət siyasətindən gedir. Belə bir fikrə gəlmək üçün isə əsaslar var.

Məsələ ondadır ki, sənəddə "soydaşlar" anlayışı mədəni-humanitar çərçivədən çıxarılaraq, xarici siyasətdə təsir vasitəsi kimi təqdim olunur. Yəni Rusiya diasporu potensial ictimai-siyasi resurs olmaqla yanaşı, zərurət yarandığı zaman siyasi mobilizasiya kanalı kimi nəzərdən keçirilir. Başqa sözlə desək, rusdilli əhali müstəqil ictimai qrup yox, xarici siyasətin funksional elementi qiyafəsindədir. Yəni diaspor mədəni körpü statusundan çıxır, təsir, təzyiq və siyasi mobilizasiya potensialına malik alətə çevrilir.

Analitik sənəddə Azərbaycan Mərkəzi Asiyanın bir sıra dövlətləri ilə yanaşı, ən mürəkkəb əməliyyat mühiti kimi xarakterizə edilir. Bunun əsas səbəbi ölkəmizdə dövlət institutlarının möhkəmliyidir. Kojokin isə durumu ictimai-siyasi proseslər üzərində effektiv nəzarət mexanizmlərinin mövcudluğu ilə əsaslandırır. Əlbəttə, o deyə bilməz və deməz ki, Azərbaycanda xalq-iqtidar vəhdəti mövcuddur. Həmçinin, o, Azərbaycanda təhlükəsizlik və hüquq-mühafizə orqanlarının işinin yüksək səviyyədə təşkil olunduğunu və bu amilin xarici aktorların qeyri-formal təsir imkanlarını ciddi şəkildə məhdudlaşdırdığını da vurğulamaz. Hər halda, bu yanaşma ölkəmizin milli təhlükəsizliyinin və ictimai-siyasi sabitliyinin etibarlı şəkildə qorunduğunu göstərməklə yanaşı, destabilizasiya kursu seçənlər üçün də diskomfort vəziyyət formalaşdırır.

Azərbaycandan fərqli olaraq, sənəddə Ermənistan daha əlverişli fəaliyyət mühiti kimi təqdim olunur. Bildirilir ki, ölkədə dövlət nəzarətinin nisbətən zəifliyi xarici təsir mexanizmləri üçün imkanlar yaradır. Amma bu amil eyni zamanda risk mənbəyi kimi qiymətləndirilir. Çünki xarici aktorların daxili siyasi proseslərə təsir imkanlarının genişlənməsi dövlət suverenliyi və milli maraqlar baxımından ciddi çağırışlar yarada bilər. Nəzərə alaq ki, çağırışları formalaşdıran qüvvə hazırkı Ermənistan iqtidarıdır. Ölkənin baş naziri Nikol Paşinyanın anti-Rusiya ovqatını hər zaman diri tutduğunu və mövcud amilin daxildəki ruspərəstlər üçün ciddi maneə yaratdığını bilirik.

Gürcüstana gəldikdə, Kojokinin hazırladığı mətndə bölgə postmüharibə dövründə Rusiyadan köç edən vətəndaşların əsas cəmləşmə məkanı kimi göstərilir. Qeyd edilir ki, Rusiyanı tərk edənlərin əhəmiyyətli hissəsi məhz bu ölkədə məskunlaşıb və mövcud fakt Gürcüstanı uzunmüddətli humanitar və təşkilati fəaliyyət baxımından prioritet istiqamətə çevirir. Yəni gələcəkdə ölkənin ictimai-siyasi mühitinə və informasiya məkanına təsir imkanları böyükdür.

Ümumi yanaşsaq, sənəd bir daha göstərir ki, Cənubi Qafqaz Rusiyanın xarici siyasətində strateji əhəmiyyətə malik regionlardan biri olaraq qalır. Sənəddə humanitar və "yumşaq güc" alətləri region ilə bağlı məsələlərdə hərbi-siyasi vasitələri tamamlayan mühüm təsir mexanizmi kimi vurğulanır. Bu nəticəyə gəlmək mümkündür ki, hazırkı şəraitdə Cənubi Qafqaz ölkələri üçün əsas vəzifə milli maraqların qorunması, dövlət suverenliyinin möhkəmləndirilməsi və xarici təsir cəhdlərinin qarşısının vaxtında alınmasıdır. Yəni güclü dövlət institutları, effektiv təhlükəsizlik sistemi və milli informasiya siyasəti bu istiqamətdə əsas təminat rolunu oynayır.

Bir məqamı da vurğulayaq ki, əslində, Kojokinin hazırladığı sənəd uzunmüddətli fəaliyyət planı təsiri bağışlayır. Məsələn, orada rusdilli əhali üzərindən humanitar-siyasi təsir mexanizmlərini gücləndirmək niyyəti klassik humanitar fəaliyyət deyil, strateji və məqsədyönlü təsir aləti rolunda çıxış edir. Sənəddə mədəni əlaqələrin qorunması, dil və identikliyin dəstəklənməsi kimi anlayışlar ön plana çəkilsə də, onların arxasında əsas məqsəd siyasi loyallıq formalaşdırmaq və bu loyallığı zərurət yarandıqda aktiv resursa çevirməkdir. Yəni, humanitar fəaliyyət burada özlüyündə məqsəd deyil, vasitə rolunu oynayır. Hər halda, bütün bunlar üçün zaman lazımdır. Təhsil, media, ekspert mühitləri, qeyri-hökumət təşəbbüsləri və sosial şəbəkələr vasitəsilə təsir dairəsinin genişləndirilməsi üçün də həmçinin.

Sonda onu da bildirək ki, Rusiya Prezident Administrasiyasının xaricdə "yumşaq güc" alətləri və humanitar-siyasi təsir mexanizmlərinə cavabdeh olan yeni bölməsi üçün hazırlanmış sənəddə əks olunan niyyət humanitar diplomatiya çərçivəsindən kənara çıxan, planlı, institusional və geosiyasi məqsədlərə xidmət edən təsir strategiyası kimi xarakterizə oluna bilər. Ehtimal var ki, bu strategiya açıq qarşıdurmanı deyil, dərin və davamlı sosial-siyasi nüfuz qurmağı hədəfləyir. İlk baxışdan bunda elə bir təəccüblü durum yoxdur. İstənilən super gücün bu sayaq planların mövcudluğu, müəyyən mənada, təbii qarşılanmalıdır. Amma Rusiyanın mövcud ampluada xeyli gecikdiyini söyləməliyik. Başqa sözlə desək, Kojokinin simasında ölkənin intellektual siyasi düşüncə sistemi, əvvəldə vurğuladığımız zamanla ayaqlaşmaq məramının icrası naminə fəaliyyətə xeyli gec başlayıb. Ona görə ki, Rusiya, bir dövlət və super güc olaraq, bütövlükdə Cənubi Qafqazın orta statistik vətəndaş kəsimi üçün, böyük ölçüdə, antipod obrazındadır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Leyla Əliyeva Əbu-Dabidə "İnsan Qardaşlığı Məclisi" tədbirində iştirak edib



**Fevralın 3-də Leyla Əliyeva Əbu-Dabidəki Zayed Milli Muzeyində "İnsan Qardaşlığı Məclisi" ("Human Fraternity Majlis") adlı tədbirdə iştirak edib.**



Əvvəlcə Birləşmiş Ərəb Əmirliklərinin tolerantlıq naziri Şeyx Nəhyan Mübarək Al Nəhyanın videomüraciəti nümayiş olundu.

Sonra Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam, Özbəkistan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Saida Mirziyoyeva çıxış etdilər.

Kardinal Corc Koovakad Papa XIV Leonun tədbir iştirakçılarına ünvanladığı məktubunu oxudu.

"Zayed İnsan Qardaşlığı Mükafatı" barədə videoçarx nümayiş olundu.



"Qadın liderliyi insan qardaşlığının təməlidir" adlı panel sessiyada İndoneziyanın keçmiş Prezidenti və Zayed mükafatı münsiflər heyətinin üzvü Meqavati Sukarnoputri, Livanın birinci xanımı Nehmat Aoun, Kolumbiyanın birinci xanımı Veronika Alkoser Qarsiya çıxış etdilər.

Panel sessiyada çıxış edən Leyla Əliyeva Azərbaycanda fərqli mədəniyyətlərə, dinlərə və ənənələrə hörmətin hər zaman həyat tərzinin ayrılmaz hissəsi olduğunu bildirdi. O, uşaqların mehriban mühitdə və ali ailə dəyərləri ilə böyüdüklərini, bunun isə onları gələcəkdə güclü şəxsiyyət kimi formalaşdırdığını vurğuladı. Heydər Əliyev Fondunun fəaliyyəti haqqında danışan Leyla Əliyeva fond tərəfindən təkcə Azərbaycanda deyil, həm də Pakistan, Gürcüstan, Bosniya və Herseqovinada bir çox məktəblərin tikildiyini və ya əsaslı təmir edildiyini bildirdi. Yeni texnologiyaların inkişafı ilə təhsil sisteminin də dəyişməsinin vacibliyini vurğulayan Leyla Əliyeva bu prosesin artıq başladığını dedi.

Leyla Əliyeva qeyd etdi ki, həm valideynlər, həm də müəllimlər uşaqlara daha çox dəyər verməli, onlara hörmətlə yanaşmalı, onları dinləməyi bacarmalıdırlar.

Uşaqların sosial medianın mənfi təsirlərindən qorumağın əhəmiyyətinə toxunan Leyla Əliyeva hazırda Azərbaycanda beynəlxalq təcrübəyə əsaslanaraq yetkinlik yaşına çatmayanları zərərli məlumatlardan qorumağın yollarının araşdırıldığını bildirdi.

Tədbirdə, həmçinin Pakistanın birinci xanımı Aseefa Bhutto Zərdari çıxış etdi.

# Əbu-Dabidə Şeyx Zayed məscidini ziyarət





**Leyla Əliyeva fevralın 3-də Əbu-Dabidə Şeyx Zayed məscidini ziyarət edib.**

Şeyx Zayed məscidi dünyanın ən böyük altı məscidindən biridir və Birləşmiş Ərəb Əmirliklərinin qurucusu və ilk Prezidenti Şeyx Zayed bin Sultan Al Nəhyanın adını daşıyır. Məscidin tikinti işlərinə 1996-cı ildə başlanılıb. Burada təxminən 50 min nəfər eyni anda ibadət edə bilər. Bu möhtəşəm tikilidə fasiləsiz olaraq Quran oxunur.

# Baş prokurorun İmişlidə vətəndaş qəbulu



**Fevralın 3-də Baş prokuror Kamran Əliyev İmişli rayon prokurorluğunun inzibati binasında İmişli, Beyləqan, Füzuli, Saatlı, Sabirabad, Cəbrayıl və Xocavənd rayonundan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 38 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Azərbaycan–BƏƏ hərbi əməkdaşlıq müzakirəsi




**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində işgüzar səfərdədir. Səfər çərçivəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənov ilə BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Məhəmməd Bin Mübarək Əl-Fadhel Əl-Məzrui arasında ikitərəfli görüş keçirilib.**

Görüşdə Azərbaycan-BƏƏ arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Birgə təlimlərin və qarşılıqlı səfərlərin ölkələrimiz arasında hərbi əlaqələrin genişlənməsinə töhfə verdiyi qeyd olunub. Tərəflər hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Həmçinin müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev BƏƏ-nin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant İsa Səif bin Ablan əl-Məzrui ilə görüşüb.

Daha sonra, Müdafiə Nazirliyinin rəhbər heyəti "Sülh Qalxanı – 2026" birgə əməliyyat-taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.

Qeyd edək ki, fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən birgə əməliyyat-taktiki təlimini izləyiblər.

***AZƏRTAC***

# İsrail–Azərbaycan əməkdaşlıq memorandumu imzalanıb



**İsrail və Azərbaycan süni intellekt sahəsində əməkdaşlığa dair memorandum imzalayıb. Bu barədə İsrail Baş nazirinin ofisi məlumat yayıb.**

Məlumata görə, mərasim İsrailin Baş naziri Binyamin Netanyahunun iştirakı ilə baş tutub. Sənədi İsrailin Süni İntellekt üzrə Milli Qərargahın komandiri, briqada generalı Erez Eskel və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev imzalayıblar.

Tərəflər yüksək məhsuldarlı hesablama infrastrukturu, vacib mülki sektorlarda süni intellekt tətbiqi, mütəxəssislərin hazırlanması və birgə tədqiqatlar aparmaq sahələrində tərəfdaşlıqlarını dərinləşdirməyi planlaşdırırlar.

Netanyahu süni intellektin müasir dövrün bir aləti olduğunu və Azərbaycanla əməkdaşlığın ölkənin bu sahədə liderliyini gücləndirməyə kömək edəcəyini qeyd edib. İsrailin Baş naziri həmçinin Azərbaycan Prezidenti İlham Əliyevə xoş arzularını çatdırmağı xahiş edib və İsrailə səfərini səbirsizliklə gözlədiyini qeyd edib.

***XQ***

# FHN-nin qeyri-sabit hava xəbərdarlığı

**Qeyd edilib ki, Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən fevralın 5-dək ölkə ərazisində kəskin hava şəraitinin müşahidə olunacağı, güclü külək əsəcəyi, ayrı-ayrı yerlərdə intensiv yağıntılar, o cümlədən qar yağacağı, temperaturun xeyli enəcəyi proqnozlaşdırılır. Bununla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırır:**

"Belə ki, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Həmçinin, güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir.

Eyni zamanda, soyuq hava şəraiti qaz və elektrik qızdırıcı cihazlarından istifadənin xeyli artmasına səbəb olduğundan bu cihazlardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməli, dəm qazı təhlükəsinə qarşı diqqətli davranılmalıdır.

Bundan başqa, xüsusilə dağlıq ərazilərdə vətəndaşlar şaxtalı və qarlı havada mümkün qədər yaşayış məntəqəsini tərk etməməli, belə bir zərurət yarandıqda hərəkət istiqaməti barədə yaxınlarını əvvəlcədən məlumatlandırmalı, avtomobilin texniki göstəricilərinin fəslə uyğunluğunu və kifayət qədər yanacaq ehtiyatını təmin etməlidirlər".

***XQ***

# "SOCAR Energy Ukraine"nin Kiyevdə sakinlərə dəstək layihəsi

Ukraynada Rusiyanın hava zərbələri və sərt şaxtalar nəticəsində yaranan enerji böhranı fonunda Azərbaycanın humanitar yardımı və dəstəyi davam edir.

"Report"un Şərqi Avropa bürosunun məlumatına görə, bu missiya çərçivəsində Azərbaycan Dövlət Neft Şirkətinin "SOCAR Energy Ukraine"nin Kiyev vilayətindəki yanacaq doldurma məntəqələrində sakinlərə dəstək nöqtələri yaradılıb. Belə ki, işıq və istilik çatışmazlığından əziyyət çəkən Kiyev sakinləri burada fasiləsiz enerji, istilik və yüngül qidalar ilə ödənişsiz təmin olunurlar.

SOCAR Ukraynanın digər vilayətlərindəki bütün obyektlərində də bu kimi nöqtələri tezliklə istifadəyə verməyi planlaşdırır. Bunlar ümumi olaraq dözümlülük məntəqələri adlandırılır. Buna səbəb Kiyev başda olmaqla Ukraynanın əksər vilayətlərində sərt şaxtalar fonunda kəskin enerji və istilik çatışmazlığı səbəbindən həyatın dözülməz vəziyyətdə olmasıdır.

***XQ***

# Milli insan kapitalı potensialı

## *Azərbaycan gəncliyi strateji ordu, ideoloji dayaq və gələcəyin lokomotividir*

**Prezident İlham Əliyevin Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə ünvanladığı müraciət müasir Azərbaycan dövlətçiliyinin ideoloji çərçivəsində gəncliyin yerini, rolunu və gələcək missiyasını sistemli şəkildə ifadə edən siyasi manifest kimi dəyərləndirilə bilər. Müraciətdə səsləndirilən fikirlər gəncliyi dövlətin uzunmüddətli inkişaf strategiyasının əsas subyekti kimi təqdim edir.**



Prezident İlham Əliyevin müraciətində milli-mənəvi dəyərlərlə müasir inkişaf tendensiyalarının paralel vəhdətdə təqdim olunması Azərbaycan dövlətçilik fəlsəfəsinin əsas ideoloji sütunlarından birini təşkil edir. Qloballaşma proseslərinin sürətləndiyi, mədəni sərhədlərin getdikcə silindiyi bir dövrdə milli identikliyin qorunması artıq dövlətlərin siyasi suverenliyi ilə birbaşa əlaqəli strateji prioritetə çevrilmişdir. Bir çox ölkələrdə modernləşmə prosesi ənənəvi dəyərlərin aşınması hesabına baş verdiyi halda, Azərbaycan modeli modernliyi milli-mənəvi əsaslardan qopmadan reallaşdırmağı hədəfləyir.

Məhz bu kontekstdə milli-mənəvi dəyərlər müasir çağırışlara uyğun şəkildə yenidən interpretasiya olunan canlı ideoloji resurs kimi təqdim edilir. Dövlətin rəsmi diskursunda milli kimlik qloballaşma ilə dialoqa girə bilən, onu selektiv şəkildə mənimsəyən və milli maraqlara uyğunlaşdıran mexanizm funksiyasını daşıyır. Məhz bu yanaşma Azərbaycanı mədəni assimilyasiya risklərindən qorumaqla yanaşı, qlobal inteqrasiya proseslərindən kənarda qalmaq təhlükəsindən də sığortalayır.

Gəncliyin bu modeldə rolu həlledicidir. Prezidentin çıxışında gənclər "ənənə–modernlik dilemması"nın daşıyıcısı kimi deyil, onun rasional həllini təmin edən sosial-siyasi aktor kimi təqdim olunur. İntellektual milli potensiala malik, qlobal elmi-texnoloji və mədəni trendləri izləyən, eyni zamanda, tarixə, dilə, mədəni irsə və dövlətçilik ənənələrinə bağlı gənc nəsil ideoloji davamlılığın əsas təminatçısıdır.

Azərbaycan gəncliyi milli ideologiyanın daşıyıcıları kimi formalaşdırılır. Onların modern dünyada rəqabət qabiliyyətli olması milli identikliyin zəifləməsi hesabına deyil, əksinə, həmin identikliyin möhkəmlənməsi fonunda baş verir.

* * *

Prezident İlham Əliyevin müraciətində gənclərin iqtisadiyyat, elm, mədəniyyət və vətəndaş cəmiyyəti sahələrində "dövlətimizin qüdrətini artıran qüvvə" kimi xarakterizə olunması gəncliyin dövlət gücünün struktur elementinə çevrildiyini göstərən konseptual yanaşmadır. Burada gənclik dövlətin inkişaf gündəliyində aktiv iştirak edən, qərarların icrasına və ictimai rəyə təsir göstərən siyasi və sosial aktor kimi təqdim olunur. Təhsil səviyyəsi, intellektual potensial, şəbəkələşmə imkanları və təşəbbüskarlıq xüsusiyyətləri ilə seçilən gənclər dövlətin institusional gücünü insan kapitalı üzərindən də möhkəmləndirirlər. Xüsusilə iqtisadiyyat və elmdə gənclərin iştirakı innovasiyayönümlü inkişaf modelinin əsas dayağına çevrilir, bu isə uzunmüddətli perspektivdə ölkənin rəqabət qabiliyyətini artıran fundamental amildir.

Müraciətdə vətəndaş cəmiyyətinin möhkəmləndirilməsində gənclərin roluna verilən önəm siyasi baxımdan xüsusi əhəmiyyət daşıyır. Gənclər həm dövlət siyasətinin daşıyıcısı, həm də ictimai ehtiyacların artikulyasiyasında fəal subyekt kimi çıxış edərək, sosial sabitliyin və institusional legitimliyin möhkəmlənməsinə töhfə verirlər. Xüsusilə mədəni irsin qorunması və beynəlxalq səviyyədə tanıdılması kontekstində gənclərin rolunun vurğulanması Azərbaycanın "yumşaq güc" strategiyasının əsas istiqamətlərindən birini üzə çıxarır. Müasir beynəlxalq münasibətlərdə dəyərlər və narrativlər də qlobal rəqabətin mühüm alətlərinə çevrilib. Bu prosesdə gənclər qeyri-rəsmi, lakin yüksək effektivliyə malik təsir kanalları yaradırlar – akademik mübadilələrdə, beynəlxalq platformalarda, mədəni layihələrdə və rəqəmsal məkanlarda ölkənin simasını formalaşdırırlar.

* * *

Prezident İlham Əliyevin Gənclər Günü münasibətilə müraciətində 44 günlük Vətən müharibəsinə edilən istinad dərin simvolik məna daşıyan ideoloji konstruksiyadır. Vətən müharibəsi dövlət diskursunda Azərbaycan gəncliyi üçün nəsil miqyasında formativ hadisə – yeni kollektiv identikliyi müəyyən edən tarixi sınaq kimi təqdim olunur. Müəyyən tarixi hadisələr var ki, onlar konkret bir nəslin dünyagörüşünü, dövlətə münasibətini və gələcəyə baxışını dərin şəkildə formalaşdırır. 44 günlük Vətən müharibəsi də Azərbaycan gəncliyi üçün məhz belə hadisə kimi çərçivələnir. Müharibə gənclərin dövlətlə münasibətini real məsuliyyət, fədakarlıq və iştirak müstəvisinə keçirir. Zəfər narrativi gəncliyi qalib dövlətin varisi statusuna yüksəldir. Qalib nəsil anlayışı gənclərin gələcəkdə dövlətin suverenliyinin qorunması, ərazi bütövlüyünün möhkəmləndirilməsi və postmüharibə inkişaf mərhələsində fəal iştirak etməsi gözləntisini legitimləşdirir.

Postmüharibə dövründə bu narrativin əsas funksiyalarından biri milli birliyin möhkəmləndirilməsidir. Müharibədən sonrakı mərhələ, adətən, cəmiyyətlər üçün yeni risklər və daxili parçalanma potensialı yarada bilər. Lakin 44 günlük Vətən müharibəsinin dövlət diskursunda "ümummilli zəfər" kimi təqdim olunması fərqli sosial qruplar arasında ortaq kollektiv yaddaş formalaşdırır. Gənclik bu yaddaşın həm daşıyıcısı, həm də gələcək nəsillərə ötürücüsü rolunu üzərinə götürür.

* * *

Dövlətimizin başçısının müraciətində yer alan "yeni intibah dövrü" anlayışı postmünaqişə Azərbaycanının inkişaf fəlsəfəsini və strateji iddiasını əks etdirən konseptual çərçivədir. Bu dövr ölkənin qarşısında duran məqsədlərin yalnız dağıdılmış ərazilərin bərpası və sosial reinteqrasiyası ilə məhdudlaşmadığını, keyfiyyətcə yeni siyasi, iqtisadi və institusional mərhələyə keçidi hədəflədiyini göstərir. Burada intibah əldə olunan tarixi nəticələr üzərində yeni inkişaf modelinin qurulması kimi təqdim olunur.

Yeni intibah diskursu postmüharibə dövründə dövlətin legitimliyini inkişaf və tərəqqi ilə möhkəmləndirməyə xidmət edir. Müharibədən sonra yaranan sosial gözləntilər yalnız təhlükəsizlik və sabitliklə məhdudlaşmır; cəmiyyət daha yüksək həyat standartları, texnoloji modernləşmə və qlobal rəqabətə inteqrasiya tələb edir. Məhz bu nöqtədə gənclik əsas həlledici faktor kimi ön plana çıxır.

Müraciətdə gəncliyin innovativ potensialın və yaradıcı enerjinin əsas daşıyıcısı kimi təqdim olunması təsadüfi deyil. Müasir dünyada iqtisadi güc təkcə təbii resurslarla deyil, bilik, texnologiya və innovasiya ilə ölçülür. Dövlətin gənclərdən gözləntisi texnoloji düşüncə, elmi yaradıcılıq və institusional çeviklik nümayiş etdirməkdir.

Rəqəmsal transformasiya, yaşıl enerji, süni intellekt, startap ekosistemləri və bilik əsaslı iqtisadiyyat kimi sahələrdə uğur qazanmaq üçün gənclərin fəal iştirakı alternativsizdir. Bu baxımdan, Azərbaycan gəncliyi gələcəyin iqtisadiyyatının əsas istehsalçısı olmaqla yanaşı, dövlət idarəçiliyinin də modernləşməsində aparıcı rol oynamağa namizəddir. İnnovativ missiya yeni idarəetmə mədəniyyətinin, şəffaf institusional yanaşmaların və qlobal standartlara uyğun sosial davranış modellərinin formalaşmasını da ehtiva edir.

İlham Əliyevin Gənclər Günü münasibətilə müraciəti aydın şəkildə göstərir ki, Azərbaycan gəncliyi dövlət siyasətində milli inkişaf strategiyasının strukturlaşdırılmış və uzunmüddətli baxışının mərkəzində yerləşdirilir. Milli-mənəvi dəyərlərə sadiq, 44 günlük Vətən müharibəsi kimi tarixi sınaqdan keçmiş və eyni zamanda innovasiyaya açıq gənclik modeli dövlətin ideoloji, siyasi və iqtisadi davamlılığını təmin edən əsas dayaqlardan birinə çevrilir.

Son olaraq qeyd edək ki, yeni model Azərbaycan dövlətinin həm daxili sabitliyini möhkəmləndirir, həm də regional və qlobal ambisiyalarını reallaşdırmaq üçün zəruri insan kapitalını formalaşdırır. Gənclər burada gələcəyin ümididir. Onlar artıq bu günün siyasi, ideoloji və strateji reallığında fəal iştirak edən, dövlət gücünün canlı və dinamik komponentinə çevrilmiş aktorlardır. Məhz bu baxımdan, Azərbaycan gəncliyi ölkənin strateji davamlılığının ən etibarlı təminatçısı, milli potensial kimi çıxış edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Koçaryanın "qələbə" eyforiyası Ermənistana ikiqat məğlubiyyət qazandırıb

## *Ekspertlər Xocalı cəlladının revanş çağırışını belə cavablandırırlar*

**Erməni ekspertlərinin regionda cərəyan edən proseslərlə bağlı son dövrlər səsləndirdikləri fikirlər diqqəti cəlb edir. Bu fikirlərdə emosional yanaşmadan çox, rasionallıq, baş verən proseslərin mahiyyətini anlama cəhdi hiss olunur.**

Uzun illər ört-basdır edilən cinayətə bərabər səhvlər və yanlış siyasi addımlar açıq şəkildə etiraf edilməyə başlanıb. Xüsusən də regionda əməkdaşlığın niyə mümkünsüz olduğu və bunun kimlərin maraqlarına xidmət etdiyi sualları aydın qoyulur. Bu yanaşma göstərir ki, Ermənistan daxilində reallıqları doğru-dürüst dərk edənlərin sayı artır və onların yanaşmaları ermənilər arasında rəğbət doğurur.

Bu günlərdə "Noyan Tapan TV. Special Programs" "YouTube" kanalının qonağı olan Ermənistan Beynəlxalq Münasibətlər və Təhlükəsizlik Məsələləri İnstitutunun assosiativ eksperti, siyasi icmalçı David Stepanyanın səsləndirdiyi fikirlər bu baxımdan maraq doğurur. Aparıcı Qayane Arakelyan qonaqla söhbətində Ermənistan–Azərbaycan münasibətlərində artıq qarşılıqlı təmas nöqtələrinin peyda olduğu, bir-biri ilə əməkdaşlığın tərəflər üçün sərfəli göründüyü bir mərhələnin başladığı təəssüratını bölüşüb. D.Stepanyan bu fikrə sakit şəkildə belə cavab verib: "Bu, həmişə belə olub. Bizim bir-birimizlə işləməyimiz həmişə sərfəli idi. Ancaq biz bunu etmirdik, çünki hakim elitaların başqa maraqları vardı və ilk növbədə bu maraqlar Rusiyaya məxsus idi. Onlar bu və ya digər formada Rusiyadan asılı və ya ona bağlı idilər. 1994-cü ildən (1994-cü ilin mayında atəşkəs haqqında saziş imzalandıqdan sonrakı mərhələ nəzərdə tutulur–S.H.) sonra bunun sərfəli olmadığını kim deyib? Bu, hər zaman sərfəli olub. Bu, Rusiyaya, açıq şəkildə Rusiyanın təyin etdiyi prezident Robert Koçaryana sərfəli deyildi. O, heç vaxt heç yerdə seçilməmiş bir şəxsdir: nə Qarabağda, nə də Ermənistanda. Hər zaman təyin olunub. Təbii ki, onu təyin edənlərin maraqlarını təmin edib. O, bu planlara qarşı aktiv şəkildə fəaliyyət göstərən şəxslərdən biri idi".



Ekspert 2001-ci ildə Bill Klintonla Vladimir Putin arasında aparılan danışıqların bu yaxınlarda məxfilikdən çıxarılmış stenoqramına da diqqət çəkib: "Həmin stenoqramı oxumağı hamıya məsləhət görərdim. Klinton deyir ki, yaxşı, Ki-Uest prosesi baş tutmadı, amma bəlkə Cənubi Qafqazda kommunikasiyaların açılması üçün başqa yol düşünək. Bəlkə bu problemi fərqli şəkildə həll etməyə çalışaq. Putin isə deyir: "Mən etiraz etmirəm, etiraz edən Robert Koçaryandır! Mən Robert Koçaryanla danışmışam, o hesab edir ki, biz bu məsələnin həllini gələcəyə saxlamalıyıq". Budur, məsələni gələcəyə saxladılar… Hər şey aydındır, hər şey məlumdur, biz hər şeyi bilirik. Mən bilmirəm, Putin o anda Koçaryanın imtina etdiyini deyərkən yalan danışırdı, ya yox…"

Onun fikrincə, Rusiya Prezidenti yalan demirdi və bu vəziyyət Ermənistanın ikinci prezidenti üçün həqiqətən də sərfəli idi: "Sərhəddə hər gün insanların həlak olması, Qarabağın, onun 160 min (?) sakininin qeyri-müəyyənlik içində qalması, ölkənin suverenliyinin yumşaq desək, ciddi şəkildə məhdudlaşdırılması, Ermənistanın hara getdiyini və inkişaf edib-etmədiyini vətəndaşların bilməməsi Koçaryan üçün əlverişli idi. Onun xarici işlər naziri Oskanyan isə deyirdi ki, biz bağlı sərhədlər şəraitində inkişaf edirik. Evrika! Biz velosipedi yenidən ixtira etdik! Dünyada qapalı sərhədlər şəraitində inkişaf edən heç bir ölkə yoxdur. Amma biz, guya, inkişaf edirdik. Bax, belə də "inkişaf etdik".

Aparıcı Q.Arakelyan daha sonra Ermənistan–ABŞ münasibətlərini xarakterizə etməyi xahiş edib. "Qarşılıqlı maraqlara əsaslanan bir razılaşma. Biznes", – deyə Stepanyan cavab verib. "Ancaq razılaşma? Yəni söhbət yalnız TRIPP-dən gedir?" – aparıcı dəqiqləşdirməyə çalışıb. "Bəli. Bu, gələcəkdə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanlar açan bir razılaşmadır. "Firebird" Amerika investisiya şirkətinin layihəsi bunun ən yaxşı sübutudur. Hələ iki il əvvəl artıq buradakı amerikalılar faktiki olaraq ABŞ biznesinə investisiyalar baxımından zəmanət verirdilər. Və bu çox şeydən xəbər verir. Bu onu göstərir ki, TRIPP üzrə danışıqlar ötən il başlamayıb, daha əvvəl – Ermənistanın 2022-ci ildə ayılma prosesinə başladığı vaxtdan etibarən gedirdi. Azərbaycan qüvvələrinin Cermuka 3 kilometrə qədər yaxınlaşması pik nöqtə oldu və məhz oradan geri sayım başlandı. Bəli, Amerika investisiyaları həmişə təhlükəsizlik deməkdir. Bu, Gümrüdə və ya Qafanda Amerika hərbi bazasının yerləşdirilməsindən daha etibarlı təhlükəsizlik təminatıdır", – deyə D.Stepanyan vurğulayıb.

* * *

Bəli, D.Stepanyanın səsləndirdiyi fikirlər Ermənistanın siyasi keçmişinə tənqidi baxışın artıq təkcə hakimiyyət çevrələrində deyil, ekspert cameəsində də gücləndiyini göstərir. Uzun illər "tarixi zərurət", "təhlükəsizlik maraqları" adı altında əsaslandırılan yanlış qərarların, əslində, konkret şəxslərin və mərkəzlərin maraqlarına xidmət etdiyi indi daha açıq şəkildə etiraf olunur. Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının niyə onilliklər boyu mümkünsüz edildiyi sualına verilən cavablar da artıq əfsanələrə deyil, real faktlara söykənir.

Qarabağdakı separatçı hərəkatın öncüllərindən, Xocalı cəlladı R.Koçaryan bu prosesdə mərkəzi fiqur kimi çıxış edir. Stepanyanın da vurğuladığı kimi, Koçaryan nə Qarabağdakı keçmiş separatçı xunta rejimində, nə də Ermənistanda legitim seçki yolu ilə hakimiyyətə gəlmiş şəxs idi. O, xalqın siyasi iradəsinin daşıyıcısı yox, təyin olunmuş fiqur idi və bu status onun bütün fəaliyyəti boyu özünü açıq şəkildə büruzə verirdi. Koçaryanın əli təkcə Azərbaycan xalqının deyil, erməni xalqının da qanına batıb. Ermənistanı regionda əməkdaşlıq imkanlarından uzaqlaşdıran, sülh perspektivlərini bilərəkdən dalana salan əsas simalardan biri oldu. Çünki gərginlik, qeyri-müəyyənlik və münaqişə onun hakimiyyətinin davamlılığı üçün ən əlverişli mühit idi.

2001-ci il Klinton–Putin danışıqlarının stenoqramı da bu reallığı təsdiqləyir. Kommunikasiyaların açılması və regional blokadaların aradan qaldırılması ideyasına qarşı çıxan tərəfin məhz Koçaryan olması təsadüfi deyildi. Məsələnin "gələcəyə saxlanılması" əslində problemin dondurulması, insanların həyatları bahasına status-kvonun qorunması demək idi. Sərhəddə hər gün itkilər, Qarabağda on minlərlə insanın taleyinin havadan asılı qalması, Ermənistanın suverenliyinin faktiki məhdudlaşdırılması Koçaryan üçün siyasi dividendlər yaradırdı. Bu xəttin ideoloji əsaslandırılması isə Vardan Oskanyan kimi fiqurların üzərinə düşürdü. "Bağlı sərhədlər şəraitində inkişaf" tezisi sadəcə siyasi məsuliyyətsizlik deyil, eyni zamanda cəmiyyətin intellektual səviyyəsini təhqir edən yanaşma idi. Qapalı sərhədlərlə inkişaf nağılı Ermənistanı real iqtisadi və siyasi alternativlərdən məhrum etdi və ölkəni dalana sürüklədi. Ölkənin sonrakı prezidenti Serj Sarkisyan da bu destruktiv xəttin davamçısı oldu. Koçaryanla eyni siyasi məktəbin yetirməsi kimi o da mövcud sistemi qorudu, məsuliyyəti paylaşdı və nəticədə Ermənistanı daha dərin böhrana apardı. Bu üçlüyün fəaliyyəti ölkəni inkişafdan çox, asılılığa və tənəzzülə yaxınlaşdırdı.

Bu gün vəziyyət dəyişir. Erməni cəmiyyəti getdikcə daha aydın şəkildə anlayır ki, illərlə onlara "milli maraq" kimi təqdim edilən siyasət əslində dar bir qrupun hakimiyyət maraqlarına xidmət edib. Stepanyan kimi ekspertlərin açıq danışması da bunu göstərir: Ermənistan ictimaiyyəti artıq bu fiqurların əsl simasını tanıyır və keçmişin yanlışlarına haqq qazandırmaq cəhdləri getdikcə daha az inandırıcı görünür.

***Səxavət HƏMİD***
***XQ***

# Özgə torpaqlarında döyüşmək mənəvi köləlikdir

## *Xarici hərbi münaqişələrdə iştirak etmək cinayət məsuliyyəti yaradır*

**Dövlət Təhlükəsizliyi Xidmətinin ölkə hüdudlarından kənarda qanunsuz silahlı birləşmələrin tərkibində döyüşmüş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilərək cinayət məsuliyyətinə cəlb etməsi ilə bağlı tədbirlər reallıqdan irəli gəlir və Azərbaycanın xarici münaqişələr fonunda formalaşdırdığı qabaqlayıcı, prinsipial və Suriya təcrübəsindən çıxarılan dərslərə əsaslanan təhlükəsizlik strategiyasının tərkib hissəsi kimi qiymətləndirilir.**

DTX-nin açıqlamasına əsasən, Rusiya–Ukrayna müharibəsində müxtəlif vaxtlarda iştirak etmiş Azərbaycan vətəndaşlarının bir qisminin həlak olduğu, yaralandığı, itkin düşdüyü və ya əsir saxlanıldığı müəyyən edilib. Aparılmış araşdırmalar nəticəsində Rusiya və Ukrayna silahlı birləşmələrinin tərkibində hərbi əməliyyatlarda iştirak etdikləri sübuta yetirilmiş 4 Azərbaycan vətəndaşı saxlanılaraq barələrində həbs qətimkan tədbiri seçilib. Rəsmi Bakı açıq şəkildə bəyan edir ki, bu kimi hallar cinayət məsuliyyəti yaradır və gələcəkdə də qanunauyğun şəkildə qarşısı alınacaq.

2011-ci ildən sonra Suriya müharibəsi qlobal miqyasda "xarici döyüşçülər" fenomenini ortaya çıxardı. Müxtəlif ölkələrdən minlərlə şəxs ideoloji, maddi və ya macəra motivləri ilə qeyri-qanuni silahlı birləşmələrə qoşuldu. Bir çox dövlətlər ilkin mərhələdə bu prosesə laqeyd yanaşdı, onu "xarici problem" kimi qiymətləndirdi və vətəndaşların müharibə zonalarına axınının qarşısını vaxtında almadı. Nəticə isə ağır oldu. Müharibə səngidikdən sonra həmin şəxslərin geri qayıdışı dövlətlər üçün yeni təhlükəsizlik mərhələsi yaratdı. Döyüş təcrübəsi qazanmış, silahla davranışa öyrəşmiş və bəzi hallarda radikallaşmış şəxslərin cəmiyyətə reinteqrasiyası mümkün olmadı. Avropada teraktlar, zorakılıq halları, gizli şəbəkələrin formalaşması və hüquq-mühafizə orqanlarının uzunmüddətli nəzarət yükü məhz gecikmiş reaksiyanın nəticəsi idi.



Azərbaycan bu gün də məsələyə milli təhlükəsizlik prizmasından yanaşır. Məlumdur ki, döyüş təcrübəsi qazanmış şəxslərin ölkəyə qayıdışı potensial radikallaşma, zorakılıq meyilləri və ya kriminal şəbəkələrə cəlb olunma ehtimalını artırır. Suriya təcrübəsi göstərdi ki, bu cür risklər qısa müddətli deyil, illərlə davam edə bilər. İkinci mühüm təhlükə kəşfiyyat və xarici təsir riskidir. Müharibə zonalarında olmuş şəxslər müxtəlif qurumlar, silahlı qruplaşmalar və xüsusi xidmət strukturları ilə təmasda olur ki, bu da sonradan informasiya sızması, şantaj və ya asılılıq mexanizmlərinin formalaşması ehtimalını yüksəldir. Üçüncüsü isə siyasi və diplomatik riskdir. Azərbaycan vətəndaşlarının başqa dövlətlərin müharibəsində iştirakı ölkənin rəsmi mövqeyi ilə ziddiyyət yarada, neytrallıq prinsipinə xələl gətirə və Bakı üçün istəmədiyi beynəlxalq siyasi assosiasiyalar formalaşdıra bilər.

Azərbaycan qanunvericiliyi ölkə hüdudlarından kənarda qanunsuz silahlı birləşmələrin tərkibində iştirak etməyi cinayət əməli kimi müəyyən edir. Burada əsas məqsəd cəza mexanizmi deyil, preventiv təsirdir. Yəni vətəndaşın münaqişə zonasına getməzdən əvvəl riskləri və nəticələri dərk etməsi. DTX-nin açıqlamalarında diqqət çəkən məqam odur ki, saxlanılan şəxslər konkret sübutlar əsasında, tərəflərdən birinin silahlı birləşmələrinin nəzarəti altında döyüş əməliyyatlarında iştirak etdiklərinə görə məsuliyyətə cəlb olunublar. Bu isə prosesin selektiv deyil, hüquqi faktlara əsaslanaraq aparıldığını göstərir.

"Suriya dərsləri" əsasında qurulan Azərbaycan modeli faktiki olaraq elə "Suriya sindromunun" qarşısını almağa yönəlib və 3 əsas prinsipə söykənir. Birincisi, qabaqlayıcı hüquqi müdaxilədir: münaqişə başa çatdıqdan sonra deyil, xarici silahlı qarşıdurmalarda iştirak faktı sübuta yetirilən kimi hüquqi mexanizmlər dərhal işə salınır. İkincisi, sistemli təhlükəsizlik yanaşmasıdır; məsələ təkcə fərdi cinayət epizodu kimi deyil, uzunmüddətli və çoxşaxəli milli təhlükəsizlik riski kimi qiymətləndirilir. Üçüncüsü isə açıq ictimai mesaj prinsipidir: Dövlət Təhlükəsizliyi Xidmətinin açıqlamaları cəmiyyətə birbaşa xəbərdarlıq xarakteri daşıyır və xarici müharibələrdə iştirakın romantik seçim deyil, ciddi hüquqi məsuliyyət və real təhlükə mənbəyi olduğunu açıq şəkildə ortaya qoyur. Bu model Suriya münaqişəsindən sonra bir çox dövlətlərin gecikmiş şəkildə tətbiq etməyə çalışdığı yanaşmanın Azərbaycanda əvvəlcədən qurulduğunu və preventiv xarakter daşıdığını nümayiş etdirir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*

**Zahid ORUC,**
**Milli Məclisin deputatı,**
**İnsan hüquqları komitəsinin sədri**



İraq və Suriyada İŞİD bayrağı altında xaotik müharibələr və terror qruplaşmalarının silahlı qarşıdurması başlayanda, təəssüf ki, müəyyən sayda Azərbaycan vətəndaşı da könüllü şəkildə bu proseslərə qoşulmaq qərarı vermişdi. Həmin şəxslərin əhəmiyyətli hissəsi bunu dini motivlərlə əsaslandırır, "cənnət vədi", "müqəddəs cihad" kimi anlayışlarla manipulyasiya olunurdu. Əslində isə bu çağırışlar xarici kəşfiyyat və ideoloji mərkəzlərin sistemli şəkildə apardığı beyin yuma əməliyyatlarının tərkib hissəsi idi.

Həmin dövrdə Azərbaycan dövlətinin müvafiq qurumları məsələyə kəskin və prinsipial şəkildə müdaxilə etdi. O vaxt torpaqlarımız işğal altında idi və hər bir potensial döyüşçüyə Azərbaycan Ordusunun ehtiyacı var idi. Məhz bu reallıqlar fonunda yerli qanunvericiliyə ciddi dəyişikliklər edildi. Qeyri-qanuni silahlı birləşmələrin və terror təşkilatlarının tərkibində iştirak ağır cinayət kimi təsbit olundu, Cinayət Məcəlləsində sərt sanksiyalar müəyyənləşdirildi.

Bu gün Rusiya–Ukrayna müharibəsi fonunda oxşar cəhdlərin yenidən ortaya çıxdığını görürük. Müxtəlif istiqamətlərdən Azərbaycan vətəndaşlarını, soydaşlarımızı və xüsusilə döyüş təcrübəsi olan şəxsləri bu münaqişəyə cəlb etmək üçün sistemli fəaliyyət aparılır. Digər tərəfdən, keçmiş döyüşçülərin bu cür münaqişələrə cəlb olunması, onların həyatlarını itirməsi və nəticədə "sakit dəfn" mərasimləri ilə torpağa tapşırılması cəmiyyətdə haqlı suallar doğurur. Əsas sual budur: kimin naminə və hansı məqsədlə döyüşüb?

Biz görürük ki, muzdlu döyüşçü mexanizmləri müxtəlif formalarda işləyir. Xüsusilə "əmək miqrasiyası", "təlim", "müqaviləli iş" adı altında fəaliyyət göstərən qeyri-rəsmi strukturlar sosial media platformalarında fəaldırlar. Onlar insanları cəlb edir, döyüş bölgələrinə göndərirlər. Digər təhlükəli hal Rusiyada yaşayan, lakin vətəndaşlığı olmayan şəxslərlə bağlıdır. Bu insanlar bəzən ciddi təzyiqlər, məcburiyyətlər və şərtlər altında hərbi əməliyyatlara cəlb olunurlar. Təcrübə göstərir ki, vəd olunan böyük imtiyazlar, ödənişlər və təminatlar reallıqda yerinə yetirilmir.

Nəhayət, onu da açıq demək lazımdır ki, Azərbaycan vətəndaşlarının bu savaşda iştirak etməsi nə dövlətimizə, nə də xalqımıza fayda gətirir. Mahiyyət etibarilə bu münaqişə qardaşın qardaşa qarşı döyüşünə çevrilib və belə itkilər bizim üçün qəbuledilməzdir.

### *Ekspert rəyi*

**Əkrəm HƏSƏNOV,**
**hüquqşünas**



Azərbaycan Respublikası Cinayət Məcəlləsində bu məsələ ilə bağlı iki əsas maddə mövcuddur. Birincisi, Cinayət Məcəlləsinin 283-1-ci maddəsidir. Bu maddə Azərbaycanın hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qrup yaratma ilə bağlıdır. Yəni dini məzhəbləri yaymaq, yaxud dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində Azərbaycanın hüdudlarından kənarda silahlı münaqişələrə qoşulma, və ya bu məqsədlə döyüş təlimləri keçirmə, bəzi məqsədyönlü fəaliyyətlərlə bağlı sabit qrup yaratma və ya belə qruplara rəhbərlik etmək 9 ildən 12 ilədək azadlıqdan məhrumetmə ilə müəyyən edilib. Eyni əməllər yetkinlik yaşına çatmayan şəxsin cəlb edilməsi ilə törədildikdə isə 15 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq olunur.

Eyni zamanda, Cinayət Məcəlləsində 114-cü maddə – muzdluluq da mövcuddur. Azərbaycan qanunvericiliyinə əsasən, muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmə səkkiz ildən on iki ilə qədər cəza ilə müəyyənləşdirilib. Lakin muzdlunun özünün hərbi münaqişədə və ya hərbi əməliyyatlarda birbaşa iştirakı halında isə həmin maddənin 3-cü bəndində əsasən 5 ildən 11 ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulur.

Digər məsələ – silahlı münaqişədə iştirak faktının sübut edilməsi mexanizmləridir. Bu, əsasən iki mənbə vasitəsilə mümkündür: ya müvafiq xarici dövlət tərəfindən təqdim edilən rəsmi məlumatlar, ya da Azərbaycan Respublikasının xüsusi xidmət orqanlarının kəşfiyyat məlumatları əsasında. Üçüncü məsələ isə iştirak etmiş şəxslərin – həlak olmuş, itkin düşmüş və ya əsir götürülmüş şəxslərin cinayət məsuliyyəti ilə bağlıdır. Əgər şəxs həlak olubsa, ona qarşı cinayət məsuliyyəti tədbirlərinin görülməsi artıq mümkün deyil. Lakin itkin düşən Azərbaycan vətəndaşıdırsa, dövlət hər bir halda öz vətəndaşının axtarılması, tapılması və əsirlikdən azad edilməsi üçün səy göstərməlidir. Həmin şəxs tapılarsa və Azərbaycana gətirilərsə, bu zaman o, qanunvericiliyə uyğun olaraq cinayət məsuliyyətinə cəlb olunur.

# Gürcüstanda xarici qrantlara qarant çəkişmələri

**Son günlər Gürcüstan daxili siyasi mühitində kəskin əks-səda doğuran hadisələrlə yadda qalıb. Bu proseslərin mərkəzində dayanan ən aktual mövzu isə "Qrantlar haqqında" Qanunun sərtləşdirilməsi və xarici maliyyələşmə üzərində dövlət nəzarətinin gücləndirilməsi təşəbbüsüdür.**

Təklif olunan dəyişikliklərə əsasən, ölkənin dövlət qurumlarına və ya cəmiyyətin müxtəlif təbəqələrinə təsir göstərə biləcək istənilən xarici vəsait qrant hesab ediləcək. Söhbət təkcə birbaşa maliyyə köçürmələrindən getmir. Eyni zamanda, texnologiya mübadiləsi, ekspert dəstəyi, xidmət və digər texniki yardım formaları da qrant anlayışına daxil ediləcək. Bu isə faktiki olaraq Gürcüstanda fəaliyyət göstərən bütün xarici təşkilatların maliyyə fəaliyyətinin dövlət nəzarətinə götürülməsi deməkdir. Xüsusilə daxili və xarici siyasətin formalaşdırılmasına yönəlmiş fəaliyyətlərin bu kateqoriyaya daxil edilməsi o deməkdir ki, siyasi və ya ictimai sahədə istifadə olunacaq xarici qrantlar üçün bundan sonra hökumətin əvvəlcədən razılığı tələb olunacaq. Bundan başqa, illik gəlirinin 20 faizindən çoxunu xarici mənbələrdən əldə edən təşkilatların əməkdaşlarına 8 il müddətinə siyasi partiya üzvü olmaq qadağan edilir.

Yeni hüquqi çərçivədə "bəyan edilmiş partiya–siyasi məqsədi olan subyekt" anlayışının tətbiqi həmin qruplara siyasi partiyalar üçün nəzərdə tutulan maliyyə məhdudiyyətlərinin şamil edilməsinə yol açır. Biznes mühiti üçün də ciddi yeniliklər nəzərdə tutulub. Dəyişikliklərə əsasən, sahibkarlıq subyektlərinin öz əsas fəaliyyət sahəsindən kənar ictimai-siyasi fəaliyyətlə məşğul olması inzibati hüquqpozma sayılacaq və təkrar hallarda 40 min lariyə qədər cərimə tətbiq olunacaq. Ümumiyyətlə, qaydaların pozulması hallarında həm inzibati, həm də cinayət məsuliyyəti, o cümlədən cərimə, ictimai işlər və azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur. Bildirilir ki, hakimiyyətə təsir göstərmək və ya xarici maraqları lobbi etmək məqsədilə xaricdən qrantların alınması, dövlət çevrilişlərinin təşkili və hakimiyyətin siyasətini dəyişməyə yönəlmiş aktiv fəaliyyətlər birbaşa cinayət məsuliyyəti yaradır.



Parlament sədri Şalva Papuaşvili bu islahatları xarici maliyyə axınlarının şəffaflaşdırılması və dövlət suverenliyinin qorunması ilə əsaslandırıb. Parlament rəhbərliyinin qənaətinə görə, bu vəsaitlər dövlətin razılığı və ictimai konsensus olmadan ölkənin daxili siyasi proseslərinə yön verib. O vurğulayıb ki, beynəlxalq qrantlar çox vaxt donor tərəflərin maraqlarına xidmət edib. " Gürcüstan heç kimin müstəmləkəsi deyil ki, orada kimsə öz qaydalarını diktə edə bilsin",– parlamentin sədri bildirib.

Məsələnin digər tərəfi şəffaflıqla bağlıdır. Papuaşvilinin Avropa İttifaqı və üzv dövlətlərin səfirliklərinə ünvanladığı suallar qrantların bəzən dolayı yollarla, hətta üçüncü ölkələrdə qeydiyyatdan keçmiş strukturlar vasitəsilə ölkəyə daxil edildiyini gündəmə gətirib. Məlum olub ki, "Transparency International Georgia" və "European Orbit" kimi nüfuzlu yerli QHT-lər Estoniyada eyni hüquqi ünvanlarda qeydiyyatdan keçirərək Avropa İttifaqı fondlarından birbaşa vəsait əldə ediblər. Papuaşvilinin sözlərinə görə, bu üsul Gürcüstan qanunlarından yan keçmək və anti-dövlət fəaliyyətlərini gizli şəkildə maliyyələşdirmək məqsədi daşıyıb.

Hakimiyyət bu cür maliyyə axınlarını beynəlxalq dələduzluq və suverenliyə müdaxilə kimi xarakterizə edir. Cinayət Məcəlləsinə edilən dəyişikliklərə əsasən, qrant qanunvericiliyinin pozulması 6 ilədək azadlıqdan məhrumetmə ilə nəticələnəcək. Siyasi məqsədlərlə çirkli pulları yuyanları isə 9 ildən 12 ilədək həbs cəzası gözləyir. Xarici maliyyə qəbul edən siyasi partiya rəhbərləri və xarici lobbiçilik fəaliyyəti ilə məşğul olan şəxslər də cinayət məsuliyyəti daşıyacaq.

Rəsmilər bu sərtləşmənin xarici təsirin və siyasi korrupsiyanın qarşısını alacağını bildirirlər. Hər halda, Gürcüstan rəhbərliyi ölkənin daxili işlərinə xarici müdaxiləni istəmir. "Qrantlar haqqında" Qanuna təklif olunan dəyişikliklər də bu məqsədə xidmət edir.

Beləliklə, Gürcüstanda qanunvericiliyinə təklif edilən düzəlişlər, sadəcə, hüquqi prosedur deyil, həm də xarici maliyyə vasitəsilə yönləndirilən siyasi təsirlərə qarşı sipər formalaşdırmaq cəhdidir. Layihənin qəbulu ölkədə kök salmış siyasi maliyyələşmə modelini sarsıda bilər. Əsas sual isə açıq qalır: Gürcüstan bu sahədə tam şəffaflığa nail olacaq, yoxsa qrant sistemi, sadəcə, daha mürəkkəb və gizli formalar alacaq?

Mövzu ilə bağlı XQ-yə açıqlama verən **siyasi şərhçi və publisist, Təhlükəsizlik Mərkəzinin direktoru Arno Xidirbeqişvili** bildirdi ki, ötən il hakimiyyət "Xarici agentlər haqqında" qanunu qəbul etdikdən sonra Qərbdəki himayədarlar vəsaitləri hətta diplomatik poçt vasitəsilə səfirliklərə çatdırmaq kimi yollara əl atdılar: "Ardınca oktyabrın 4-də prezident iqamətgahının ələ keçirilməsi ilə müşayiət olunan növbəti,




uğursuz dövlət çevrilişi cəhdi hakimiyyəti qanunvericiliyi sərtləşdirməyə vadar etdi".

Ekspertin fikrincə, müxalifət adlanan təbəqənin böyük hissəsi həyatı boyu faydalı əməklə məşğul olmayıb, yalnız Qərbdən axan qrantlarla dolanıb: "Bu səbəbdən onlar dövlət çevrilişi cəhdlərindən və radikal gündəmlərdən başqa heç nə bacarmırlar. ABŞ-ın yeni rəhbərliyinin USAID və NED kimi qurumların fəaliyyətini məhdudlaşdırması, gender siyasətindən imtinası bu "agentlər ordusu" üçün əsl fəlakətə çevrilib.

Nəzərə alın ki, bundan sonra təkcə hökumət əleyhinə hərəkətlər deyil, həm də hökumət siyasətinə təsir etmək niyyətləri və ayrıca qeyd edildiyi kimi, bu siyasəti dəyişdirmək niyyətləri cəzalandırılır. Əslində, qanuna təklif olunan dəyişikliklər ölkənin uzunmüddətli maraqlarına xidmət edir. Çünki qrantlar artıq elit korrupsiyanın və beynəlxalq maraqların alətinə çevrilib. Həm xaricdəki qrant verənlər, həm də yerli agentlər bundan faydalanırlar. Hakimiyyət isə bu sistemin qarşısını alaraq dövlət idarəçiliyini səmərəli və müstəqil etmək niyyətindədir. Parlamentdə müzakirə olunan qanun layihəsi də bu məqsədə xidmət edir. Təklif olunan dəyişikliklər bütün mümkün halları nəzərə alan ümumi qaydalar təqdim edir, amma onu həyata keçirmək üçün dövlət qurumları lazımdır. Mövcud dəyişikliklərin hazırlanmasında İrakli Kobaxidze və "Gürcü arzusu" partiyasının rolu diqqətəlayiqdir. Məqsəd yalnız qanun qəbul etmək deyil; Qərb qrantları və onların gətirdiyi korrupsiyaya son qoymaqdır".

Müxalifətin "demokratiya boğulur" şüarları altında apardığı kampaniyalara toxunan siyasi şərhçi sual edir: "Saakaşvili dövrünün işgəncə və media qırğınlarını "demokratiya mayakı" adlandıranların təklif etdiyi model Gürcüstana lazımdırmı? Rəsmi Tbilisi artıq xarici qrantları, sadəcə, humanitar yardım deyil, dövlət çevrilişləri və xarici maraqların lobbiçiliyi üçün istifadə olunan birbaşa siyasi təsir aləti kimi qiymətləndirir. Bu yeni qanunvericilik çərçivəsi Gürcüstanın milli müqəddəratını kənar paytaxtların maliyyə diktəsindən azad edərək, suveren dövlət idarəçiliyini bərpa etməyi hədəfləyir".

Beləliklə, Gürcüstan hakimiyyətinin indiki addımları ölkənin müstəqilliyini qorumaq, korrupsiyanı azaltmaq və idarəçiliyi gücləndirmək məqsədi daşıyır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan–BƏƏ iqtisadi əlaqələri yeni mərhələyə yüksəlir



(əvvəli 1-ci səhifədə)

Görüş zamanı Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətində İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalanıb. Məlumat üçün bildirək ki, "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payı qurumun şirkətin idarəetməsində həlledici (50 faizdən çox) səs hüququna malik olmadığı, lakin mülkiyyət hüququnu və gəlirlərdən pay almasını təmin edən hissədir.

"Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2014-cü il tarixli sərəncamı ilə təsis edilib. Bundan da məqsəd "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri layihələrinin idarə edilməsini təmin etməkdən ibarət olub. Sərəncama əsasən, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən nizamnamə kapitalı 100 milyon ABŞ dolları məbləğində olan və səhmlərinin 51 faizi dövlət mülkiyyətində, 49 faizi isə Dövlət Neft Şirkətinə məxsus olan təsisatdır.

Prezident sərəncamının 2-ci bəndində müəyyən edildiyi kimi, Azərbaycan Respublikası Dövlət Neft Fonduna cəmiyyətin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin maliyyələşdirilməsi, eləcə də cəmiyyətə keçən layihələrdəki iştirak paylarının maliyyələşdirilməsi üçün tələb olunan vəsaitin geri qaytarılmaq şərti ilə cəmiyyətə uzunmüddətli investisiya edilməsi tapşırılıb. "Cənub Qaz Dəhlizi" QSC-nin birbaşa dövlət mülkiyyətində olan səhmlərinin sahibliyi və idarə edilməsi isə İqtisadiyyat Nazirliyinə həvalə edilib.

Dövlət başçısının 25 fevral 2014-cü il tarixli "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" sərəncamına edilən dəyişikliyə əsasən, bu layihələrin icrası həvalə edilmiş "Cənub Qaz Dəhlizi" QSC-də dövlətin (İqtisadiyyat Nazirliyinin) payı 51 faizdən 49 faizə, Azərbaycan Dövlət Neft Şirkətinin payı isə 51 faizə çatdırılıb.

Burada əsas məqamlardan biri də ondan ibarətdir ki, İqtisadiyyat Nazirliyi səhmlərin sahibi kimi çıxış etsə də, bu pay "qeyri-nəzarət" payı kimi konsolidasiya edilmiş maliyyə hesabatlarında əks olunur. Bu da nazirliyin şirkətin operativ qərarlarına birbaşa nəzarət etmədiyini göstərir. Maliyyə hesabatlarına gəldikdə isə, bu, şirkətin aktivlərinin və xalis mənfəətinin hamısının deyil, yalnız nazirliyə məxsus olan hissənin maliyyə nəticələrinə təsirini ifadə edir.

Yeri gəlmişkən, son illər Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasındakı münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. 2025-ci ilin iyulunda iki ölkə arasında ticarət maneələrini aradan qaldırmaq və qeyri-neft dövriyyəsini artırmaq məqsədi daşıyan Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi ilə ölkələrimiz arasında iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Hazırda dövlətlərarası əlaqələr həm ənənəvi iqtisadiyyat, həm də "yaşıl" enerji sahəsində sürətlə genişlənir.

Ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 2 dəfəyə yaxın artması da iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyini təsdiqləyir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2025-ci ildə Azərbaycan və BƏƏ 182 milyon dollardan artıq idxal-ixrac əməliyyatları aparıblar ki, bu da əvvəlki ilə nisbətən 1,9 dəfə çoxdur. Ekspertərin qənaətinə görə, bu rəqəm mövcud potensialı tam əhatə etməsə də, dövlətlərarası münasibətlərin dərinləşməsi növbəti illərdə ticarət dövriyyəsinin həcminin daha da artmasına səbəb olacaq. Elə son illər Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərinə daha çox qeyri-neft məhsulları ixrac etməsi də bu baxımdan diqqət çəkir.

Eyni zamanda, BƏƏ Azərbaycanda "yaşıl" enerjiyə sərmayə qoyuluşu həyata keçirən dövlətlərdəndir. Ümumilikdə isə, enerji əməkdaşlığı ikitərəfli münasibətlərin ana xəttini təşkil edir. Ötən müddətdə BƏƏ-nin bərpaolunan enerji sahəsində dünyaca məşhur "Masdar" şirkəti ilə Azərbaycanda "yaşıl" enerji layhələrinin həyata keçirilməsi məqsədilə 1,2 milyard dollardan çox sərmayə qoyuluşu ilə bağlı sazişlər imzalanıb. Şirkətin ölkəmizdə icra etdiyi 230 meqavatlıq "Qaradağ" Günəş Elektrik Stansiyası layihəsi artıq 2 ildən çoxdur ki, real fəaliyyət sahəsinə çevrilib. Hazırda isə şirkət 445 meqavatlıq Biləsuvar və 315 meqavatlıq Neftçala günəş, eləcə də 240 meqavatlıq Abşeron-Qaradağ külək elektrik stansiyalarının tikintisini davam etdirir.

Neft-qaz sahəsində tərəfdaşlıq isə SOCAR və ADNOC şirkətlərinin fəal əməkdaşlığı nəticəsində uğurla inkişaf edir. Məlum olduğu kimi, 2023-cü ilin avqust ayında BƏƏ-nin Əbu-Dabi Milli Neft Şirkəti Azərbaycanın "Abşeron" qaz-kondensat yatağında 30 faiz iştirak payı alıb. Bu addım ölkələrarası enerji əməkdaşlığının, strateji əlaqələrin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Yeri gəlmişkən, ADNOC-un Birləşmiş Ərəb Əmirliklərinin hüdudlarından kənarda apstrim layihəsində ilk investisiyasını Azərbaycana yatırması ölkəmizdə xarici sərmayədarlar üçün yaradılan əlverişli investisiya mühitinin növbəti təzahürüdür. Eyni zamanda, digər yeni layihələrə də əməkdaşlıq marağının artdığı müşahidə edilir.

Son illər Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri investisiya sahəsində də fəal əməkdaşlıq edirlər. İki ölkənin iştirakı ilə yaradılmış 1 milyard dollarlıq Birgə İnvestisiya Fondu bu sahədə ən vacib alətlərdən biri sayılır. Hazırda sözügedən təsisat çərçivəsində bir sıra layihələrə investisiya qoyuluşu ilə bağlı danışıqlar aparılır. Ötən ilin sentyabr ayında Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Modon Holding" ilə şəhərsalma sahəsində 5 milyard dollar dəyərində investisiya layihəsi ilə bağlı əməkdaşlıq müqaviləsi imzalanıb.

Ümumilikdə isə, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında indiyədək siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 70-dən çox saziş və anlaşma memorandumu imzalanıb ki, bunlar da iri investorlara enerji, davamlılıq, süni intellekt, rəqəmsal transformasiya və gəmiqayırma kimi müxtəlif vacib sahələrdə investisiyaların mübadiləsi üçün geniş imkanlar açıb.

Bununla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində minatəmizləmə fəaliyyətinə də dəstək göstərir. Bu məqam ikitərəfli münasibətlərin humanitar ölçüsünü nümayiş etdirir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə BƏƏ hökuməti bu məqsədlə ANAMA-ya 5 milyon ABŞ dolları məbləğində maliyyə yardımı ayırıb. Bu isə postmünaqişə dövründə təhlükəsizliyin təmin olunmasına, bərpa və yenidənqurma proseslərinə mühüm töhfə kimi dəyərləndirilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji" dəhlizi üzrə formalaşan əməkdaşlıq regionun enerji və geoiqtisadi xəritəsində yeni mərhələnin əsasını qoyur. Mərkəzi Asiya ilə Cənubi Qafqazı birləşdirən bu təşəbbüs bərpa olunan enerji mənbələrinin istehsalı, ötürülməsi və Avropa bazarlarına çıxışı baxımından strateji əhəmiyyət daşıyır.**

# Xəzər "yaşıl enerji" dəhlizi yeni regional əməkdaşlıq ünvanıdır

Son illər qlobal enerji keçidi və iqlim gündəliyi fonunda Azərbaycan, Qazaxıstan və Özbəkistan "yaşıl enerji" sahəsində potensiallarını birləşdirməklə regional sinerji yaratmağa yönəliblər. Layihənin əsas ideyası Qazaxıstan və Özbəkistanda istehsal olunan günəş və külək enerjisinin Xəzər dənizi üzərindən ötürülərək Azərbaycanın enerji sisteminə inteqrasiya edilməsi və buradan Avropaya nəqlidir.

Bu kontekstdə Azərbaycan "yaşıl enerji" dəhlizində tranzit və koordinasiya mərkəzi kimi çıxış edir. Ölkənin mövcud enerji infrastrukturu, regional nəqliyyat və ötürücü xətlərdə təcrübəsi layihənin praktik icrası üçün mühüm üstünlüklər yaradır. Qazaxıstan geniş külək resursları ilə, Özbəkistan isə yüksək günəş potensialı və sürətlə inkişaf edən bərpa olunan enerji layihələri ilə dəhlizin istehsal bazasını formalaşdırır.

Mütəxəssislərin fikrincə, Xəzər dənizi üzərindən çəkilməsi nəzərdə tutulan yüksək gərginlikli elektrik xətləri Mərkəzi Asiya ölkələrinin ilk dəfə olaraq birbaşa Avropa enerji bazarına çıxışını təmin edə bilər. Bu isə həm enerji ixracının coğrafiyasını genişləndirir, həm də Avropanın təmiz enerji mənbələrinə çıxış imkanlarını artırır.

Layihənin maliyyələşdirilməsi və texniki əsaslandırılması beynəlxalq maliyyə institutlarının iştirakı ilə həyata keçirilir. Bu yanaşma risklərin bölüşdürülməsinə, layihənin uzunmüddətli dayanıqlığının təmin edilməsinə və özəl investisiyaların cəlb olunmasına imkan yaradır.

Qeyd edək ki, bugünlərdə Azərbaycan, Qazaxıstan və Özbəkistan energetika nazirlərinin müavinləri, Birgə Müəssisə, "CESI S.p.A" şirkəti, Asiya İnkişaf Bankı (AİB) və üç ölkənin elektrik enerjisi şirkətlərinin iştirakı ilə "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair ilk onlayn iclas keçirilib.

Energetika nazirinin müavini Orxan Zeynalov Azərbaycan, Qazaxıstan və Özbəkistanın böyük bərpaolunan enerji potensialının araşdırılmasında 3 ölkənin, beynəlxalq qurumların və məsləhətçi şirkətlərin ortaq səylərinin əhəmiyyətini vurğulayıb. Nazir müavini bildirib ki, "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsi ölkələr arasındakı enerji bağlantılarını gücləndirməklə strateji əməkdaşlığı daha da dərinləşdirəcək.

Qazaxıstanın energetika nazirinin müavini Sunqat Yesimxanov və Özbəkistanın energetika nazirinin müavini Ümid Mamadinov tədqiqatdan yüksək nəticələr gözlədiklərini qeyd edərək, "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin regional enerji inteqrasiyası və aşağı karbonlu keçid üçün strateji əhəmiyyət daşıdığını bildiriblər.

İclasda məsləhətçi şirkət "CESI S.p.A", eləcə də tərəfdaşları Türkiyənin "EPRA" və Böyük Britaniyanın "JURU" şirkətləri tərəfindən birgə həyata keçiriləcək layihənin texniki-iqtisadi əsaslandırmasının başlanğıc mərhələsi üzrə planlaşdırılan tədbirlər və müvafiq missiyanın təşkili ilə bağlı müzakirələr aparılıb. Növbəti addımlar razılaşdırılıb.

Məlumat üçün bildirək ki, layihənin icrası məqsədilə "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" əsasında "Yaşıl Dəhliz Alyansı" - Birgə Müəssisə yaradılıb. Layihənin texniki-iqtisadi əsaslandırmasını hazırlamaq üçün İtaliyanın "CESI S.p.A" şirkəti beynəlxalq tenderdə qalib elan olunub. Texniki-iqtisadi əsaslandırma prosesi Asiya İnkişaf Bankı (AİB) və Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) dəstəyi ilə həyata keçiriləcəkdir.



Yeri gəlmişkən, İtaliyanın "CESI S.p.A" şirkəti Transxəzər Yaşıl Enerji Dəhlizinin texniki-iqtisadi əsaslandırmasının (TİƏ) hazırlanmasına başlayıb. Bunu "Yaşıl Enerji Dəhlizi" Birgə Müəssisəsinin baş direktoru Tural Əliyev ADA Universitetində Beynəlxalq Təmiz Enerji Günü münasibətilə keçirilən dəyirmi masada bildirib. Onun sözlərinə görə, ötən ilin son ayında CESI "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırmasının hazırlanması üçün məsləhətçi tərəfdaş seçilib, 2026-cı ilin yanvarında isə şirkətin mütəxəssisləri işə başlayıblar.

Baş direktor qeyd edib ki, TİƏ Mərkəzi Asiya ölkələrindən Avropaya "yaşıl enerji"nin nəqli üzrə texniki, ekoloji və maliyyə əsaslandırmasını, həmçinin layihənin həyata keçirilməsi üçün lazımi resursların qiymətləndirilməsini əhatə edir.

Bundan başqa, qarşıya qoyulan vəzifələrə Xəzər dənizinin günəş enerjisi potensialından və külək enerjisi resurslarından istifadə də daxil olmaqla, 2040-cı ilə qədər Özbəkistan, Qazaxıstan və Azərbaycanın bərpaolunan enerji mənbələrinin ixracı üzrə baş planın və strategiyanın hazırlanması daxildir. Eyni zamanda, şəbəkə infrastrukturundakı fərqlər və mümkün ekoloji təsirlər nəzərə alınmaqla milli enerji sistemlərinin inteqrasiyasının texniki əsaslandırmasının hazırlanması planlaşdırılıb.

2025-ci il aprelin 4-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankı (AİB) və Asiya İnfrastruktur İnvestisiya Bankının (AİİB) dəstəyi ilə "Xəzər yaşıl enerji dəhlizi" təşəbbüsünün birinci mərhələsinin başlanması barədə razılığa gəliblər. Tərəflər 3 ölkənin enerji sistemlərinin inteqrasiyasını və Avropaya bərpaolunan enerji tədarükü marşrutunun formalaşdırılmasını nəzərdə tutan layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair əməkdaşlıq sazişi imzalayıblar.

***Musa BAĞIRLI***
***XQ***

# Nadir sikkələrimiz ümumdünya pul sərgisində

**Azərbaycanın milli dağ-mədən şirkəti "AzerGold" QSC-nin ölkəmizin tarixi-mədəni irsini və nadir fauna növlərini əks etdirən qızıl və gümüş sikkələri ilk dəfə olaraq Berlin şəhərində keçirilən Ümumdünya Pul (Sikkə) Sərgisində nümayiş etdirilib.**



Üç günlük sərgi çərçivəsində, təxminən, 50 ölkədən milli zərbxanalar və mərkəzi banklar da daxil olmaqla 320-dən çox iştirakçı öz məhsul və xidmətlərini beynəlxalq ictimaiyyətə təqdim edib. Sərgi müddətində "AzerGold" QSC-nin stendində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı "Smartminting" texnologiyası əsasında üçölçülü formatda hazırlanmış "100 il və onun fövqündə bir irs" adlı qızıl sikkə, Azərbaycanın tarixi Zəfərinin 5-ci ildönümü şərəfinə ithaf olunan "Zəfər" sikkəsi və "Qarabağ" kolleksiyasına aid qiymətli məhsullar, eləcə də ölkəmizin müasirliyini, tarixini, incəsənətini və qədim ənənələrini təbliğ edən digər sikkələr barədə ziyarətçilərə ətraflı məlumat verilib.

Ölkəmizin füsunkar təbiətini, nadir növlərin qorunması ideyasını və qabaqcıl istehsal texnologiyalarını özündə birləşdirən numizmatika layihəsi çərçivəsində hazırlanmış yeni nəsil gümüş sikkə kolleksiyası sərgi iştirakçılarının xüsusi marağına səbəb olub. Eyni zamanda, sərgi çərçivəsində Avropa şirkətləri ilə potensial tərəfdaşlıq imkanlarının müzakirəsi məqsədilə bir sıra işgüzar görüşlər keçirilib.

Xatırladaq ki, qiymətlilərin istehsalı üzrə qlobal trendlərin yaxından izlənilməsi baxımından mühüm əhəmiyyət daşıyan Ümumdünya Pul Sərgisi ilk dəfə 1972-ci ildə İsveçrənin Bazel şəhərində "Beynəlxalq sikkə mübadiləsi sərgisi" adı altında fəaliyyətə başlayıb. 2006-cı ildən etibarən Almaniyanın Berlin şəhərində təşkil olunan bu beynəlxalq tədbir hazırda bütün qitələrdən kolleksiyaçıları, dilerləri, texniki mütəxəssisləri və zərbxanaları bir araya gətirən qlobal miqyaslı nüfuzlu platforma kimi tanınır.

***XQ***

# "Astara" elektrik stansiyası ahəngdar işləyir

## *20 ildə bu mərkəz ölkəyə 5,2 milyard kilovat-saat enerji verib*

2006-cı ilin fevral ayında istismara verilmiş "Astara" modul tipli elektrik stansiyası ahəngdar rejimdə fəaliyyət göstərir. 2025-ci ildə stansiyada 100 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub. Bütövlükdə isə, ötən 20 il ərzində burada 5,2 milyard kilovat-saat elektrik enerjisi istehsal edilib. Bu barədə Energetika Nazirliyindən məlumat verilib.



Xatırladaq ki, Astara rayonunun Ərcivan kəndində inşa olunan modul tipli stansiya Azərbaycan energetikləri ilə Finlandiyanın "Vartsila" şirkətinin 2005-2007-ci illər ərzində birlikdə tikib istifadəyə verdikləri 5 enerji istehsalı müəssisələrindən birincisidir. Stansiyanın ümumi gücü 87 meqavat təşkil edir. Burada hər birinin gücü 8,7 meqavat olan 10 ədəd qaz porşen aqreqatı quraşdırılıb.

***XQ***

# Qədim Gəncə gəncləşir, müasirləşir, gözəlləşir

**Bu bir həqiqətdir ki, şəhərlərin inkişafı təkcə statistik göstəricilərlə ölçülə bilməz. Hətta asfaltlanan yolların uzunluğu, salınan parkların, tikilən və əsaslı təmir olunan binaların sayı hesabatlarda öz əksini tapsa da, bu da yetərli deyil. Çünki şəhərin real vəziyyəti insanların gündəlik həyatında hiss olunan dəyişikliklərlə müəyyən olunur. Sevindirici haldır ki, Gəncə məhz bu baxımdan son illərdə fərqli mərhələyə qədəm qoymuş şəhərlər sırasındadır.**

**Gəncə Azərbaycanın ikinci şəhəridir və bu şəhərə daim diqqət həmişə yüksək səviyyədə olub. İkincisi, ona görə ki, bir çox layihələr Gəncə şəhərində icra edilib və bu layihələrin icrası davam edir. Gəncə şəhərinin kompleks inkişaf planı həm təsdiqlənib, həm də uğurla icra edilir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



Əslində, 2025-ci il Gəncə üçün sadəcə bir təqvim ili olmayıb, ardıcıl proseslərin davamı və əvvəlki mərhələlərin nəticələrinin daha aydın göründüyü dövr olub. Şəhərdə aparılan abadlıq-quruculuq işləri, infrastruktur layihələri, sənaye və sosial sahədə atılan addımlar Gəncənin inkişafının epizodik yox, sistemli xarakter daşıdığını göstərir. Bu inkişaf bir mərkəzdə cəmlənməyib, şəhərin demək olar ki, bütün ərazilərini əhatə edib.

Gəncə tarixən Azərbaycanın mühüm şəhərlərindən biri olub. Müxtəlif dövrlərdə mədəniyyət, sənaye və inzibati mərkəz funksiyalarını daşıyan bu şəhər müasir dövrdə də həmin statusunu qorumaq və gücləndirmək mərhələsindədir. Lakin müasir şəhər anlayışı təkcə tarix və ənənələrlə məhdudlaşmır. Müasir şəhər rahat həyat mühiti, dayanıqlı iqtisadiyyat və sosial balans deməkdir. 2025-ci ildə Gəncədə aparılan işlər məhz bu anlayışlar üzərində qurulub.

İlin yekunlarına həsr olunmuş hesabat yığıncağı da bu baxımdan diqqət çəkib.




Burada səsləndirilən məlumatlar sadəcə görülən işlərin siyahısı deyil, şəhərin hansı mərhələdən keçdiyini və hansı mərhələyə doğru irəlilədiyini göstərən göstəricilər kimi qiymətləndirilə bilər. Gəncə artıq yalnız problemlərini həll edən şəhər deyil, gələcək inkişaf modelini formalaşdıran şəhər mərhələsinə qədəm qoyub.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov çıxışı zamanı doğru olaraq qeyd etdi ki, 2025-ci il Azərbaycan üçün sosial və iqtisadi baxımdan uğurlu il olub. Şəhər rəhbəri bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət, ardıcıl islahatlar və çevik idarəetmə ölkənin dayanıqlı inkişafını təmin edib. Ötən ilin avqust və sentyabr aylarında Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə səfərləri şəhər əhalisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Qədim tarixə və zəngin mədəni irsə malik olan Gəncə 2025-ci ildə MDB məkanında idman paytaxtı statusunu daşıyıb. Bunun özü Gəncəyə böyük etimadın göstəricisidir. Hesabat dövründə Gəncə, eləcə də Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi şəhərləri III MDB Oyunlarına ev sahibliyi edib. Sentyabrın 28-də Gəncədə keçirilən açılış mərasimində Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva iştirak ediblər. On gün davam edən yarışlarda MDB ölkələri ilə yanaşı, Türkiyə, Pakistan və digər dövlətlərdən ümumilikdə 2400 nəfərlik idman nümayəndə heyəti mübarizə aparıb.

## "Ağır günlərdə qolumuzdan tutan olmasaydı..."

Bir faktı xüsusi vurğulamaq istərdik ki, Niyazi Bayramovun Gəncəyə rəhbərlik etdiyi dövr ən ağır mərhələyə təsadüf edib. Bütün dünyanı cənginə alan koronavirus pandemiyası və onun fəsadlarının aradan qaldırılması, profilaktik tədbirlərin görülməsi və digər işlər asan başa gəlməyib. Yadımdadır ki, şəhər rəhbəri özü dəfələrlə avtobuslara daxil olur, insanların bir sıra məcburi tədbirlərə necə əməl etdiyini yoxlayırdı.

O ağır günlərdə Gəncənin ermənilər tərəfindən beş dəfə raket atəşinə tutulması, saysız-hesabsız insanların evsiz-eşiksiz qalması, 26 nəfər şəhər sakininin həlak olması, çoxlu sayda yaralının olması... Üstəlik, müharibədən gələn şəhidlər, onların dəfni və bu mərasimlərin yüksək səviyyədə təşkili... Yəni son dərəcə ağır bir dövr idi. O günlərdə şəhər rəhbəri işi elə təşkil etmişdi ki, bir nəfər də olsun narazı qalan olmamışdı. Olmuşdusa da, bu, diqqətsizlikdən yox, yaranmış ümumi çətinliklərdən qaynaqlanırdı.

Yeri gəlmişkən, Niyazi Bayramovun xarakterində diqqətsizlik, kobudluq, laqeydlik ümumiyyətlə yoxdur. Bunu bütün şəhər əhalisi bilir. İnsanlara qarşı səmimi və nəzakətli davranış onun gündəlik həyat tərzidir.

Bir dəfə Niyazi müəllimdən soruşdum ki, bunların hamısına necə nəzarət edə bilirdiniz və hər şeyi necə çatdırırdınız? Gülümsəyərək dedi: "-Mən icraçıyam. Cənab Prezidentimizin tapşırıqları sözsüz icra olunmalıdır. Bu şəhərdə görülən hər bir iş, şəhid ailələrinə göstərilən diqqət və qayğı ölkə başçımızın tapşırığı və dəstəyi ilə həyata keçirilir. Yoxsa şəhər, sizin ifadənizlə desəm, öz libasını bu qədər dəyişə bilməzdi. Yəni o ağır günlərdə qolumuzdan tutan olmasaydı, biz heç nə edə bilməzdik".



Yadıma 2002-ci il sentyabrın 12-də Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Gəncədə keçirilən müşavirədə söylədiyi sözlər düşdü: "Bugünkü görüşümüzü sona çatdıraraq demək istəyirəm ki, mən Gəncə şəhərinə həmişə böyük diqqət yetirmişəm, bu gün də diqqət yetirirəm. Mənim bu həyəcanlı çıxışım da məhz Gəncə şəhərinin indiki xoşagəlməz mənzərələrini görəndən sonra belə narahat olmuşam. Gəncə həmişə gözəl şəhər olubdur. Onu daha da gözəlləşdirmək lazımdır. Çünki onun əsası gözəldir. Amma insanın özü nə qədər gözəl, sağlam olsa da, onun paltarından da çox şey asılıdır. İndi siz də şəhərin "paltarını" düzəltməlisiniz ki, küçələri abad olsun, mağazaları gözəlləşsin, binaları rənglənsin. Yoxsa nədir bu, mən gördüyüm binalarda 20-30 il bundan əvvəl qalmış rənglərdir. Mən güman edirəm ki, bundan nəticə çıxaracaqsınız. Təkcə icra hakimiyyəti deyil, burada müəssisə rəhbərləri, başqa vəzifəli şəxslər var, onlar da. Mən güman edirəm ki, bundan nəticə çıxaracaqsınız. Təkcə icra hakimiyyəti deyil, burada müəssisə rəhbərləri, digər vəzifəli şəxslər də var, onlar da bu məsuliyyəti dərk etməlidirlər".

...Bu ağır sınaqlardan sonra Gəncənin MDB Oyunlarını yüksək səviyyədə təşkil etməsi xüsusi qeyd olunmalıdır. Oyunlar zamanı və ondan sonrakı günlərdə keçmiş ittifaq ölkələrinin qəzet və saytlarında Gəncə haqqında nə qədər xoş sözlər yazıldığını görmək olurdu. Gəncənin görməli yerlərində çəkilən şəkillər onların mətbuat səhifələrində geniş yer alırdı.

2025-ci ildə Gəncə şəhərində yol-nəqliyyat infrastrukturu prioritet istiqamətlərdən biri olaraq qalmaqda davam edib. Şəhərin müxtəlif ərazilərində, o cümlədən mərkəzi hissədə və kənar yaşayış massivlərində ümumilikdə 130-a yaxın küçə və prospektdə əsaslı təmir və yenidənqurma işləri aparılıb.

Atatürk prospekti, Nizami Gəncəvi prospekti, Şah İsmayıl Xətai küçəsi, Azərbaycan Bayrağı küçəsi kimi əsas magistrallarda asfalt örtüyü yenilənib, yol yatağı möhkəmləndirilib, piyadalar üçün səkilər bərpa olunub. Bu işlər nəqliyyatın hərəkətində rahatlıq yaratmaqla yanaşı, şəhərin ümumi görünüşünə də müsbət təsir göstərib.

Məhəllədaxili yolların təmiri xüsusilə diqqət mərkəzində olub. Uzun illər asfalt üzü görməyən küçələrdə aparılan işlər sakinlərin gündəlik həyatına birbaşa təsir edib. Tozlanma azalıb, yağışlı havalarda yaranan problemlər aradan qalxıb.

## "Mərkəz", "kənar" məhəllə anlayışı aradan qalxır

Şəhərdə aparılan abadlıq-quruculuq işləri yalnız yollarla məhdudlaşmayıb. Çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri, dam örtüklərinin yenilənməsi, həyətlərin abadlaşdırılması şəhər mühitinin keyfiyyətini əhəmiyyətli dərəcədə artırıb.

Xüsusilə köhnə yaşayış massivlərində aparılan bu işlər həmin ərazilərin sosial görünüşünü dəyişib. Həyətlərin işıqlandırılması, yaşıllıq sahələrinin salınması, uşaq oyun meydançalarının qurulması məhəllələrin yaşayış üçün daha əlverişli hala gəlməsinə səbəb olub.

Bu tədbirlər nəticəsində şəhərin mərkəzi ilə kənar ərazilər arasında sosial fərqlərin azaldılması istiqamətində mühüm addımlar atılıb.

2025-ci ildə Gəncədə kommunal təsərrüfat sahəsində aparılan işlər şəhər həyatının dayanıqlılığı baxımından xüsusi əhəmiyyət daşıyıb. Elektrik təsərrüfatında köhnə xətlərin mərhələli şəkildə dəyişdirilməsi, transformator məntəqələrinin yenilənməsi enerji təminatının etibarlılığını artırıb.

Su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi isə daha geniş zaman kəsiyini əhatə edən proses kimi həyata keçirilib. Bu layihə müəyyən müddət ərzində narahatlıqlar yaratsa da, uzunmüddətli perspektivdə şəhərin su təminatının dayanıqlılığı baxımından həlledici rol oynayır.

2025-ci ildə Gəncədə yaşıllaşdırma tədbirləri ardıcıl şəkildə davam etdirilib. Şəhərin əsas prospektlərində, park və istirahət zonalarında minlərlə ağac və dekorativ bitki əkilib.



Xan bağı, Fikrət Əmirov parkı, Bayraq meydanı kimi ərazilərdə aparılan abadlıq işləri bu məkanları şəhər sakinləri üçün daha cəlbedici istirahət zonalarına çevirib. Yaşıllıq layihələri təkcə estetik məqsəd daşımır, eyni zamanda, şəhərin ekoloji yükünün azaldılmasına xidmət edir.

Gəncə şəhərinin sənaye potensialının artırılması 2025-ci ildə də əsas istiqamətlərdən biri olub. Mövcud sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, yeni istehsal sahələrinin yaradılması məşğulluğun artmasına müsbət təsir göstərib.



"Parıltı Halı" müəssisəsi kimi istehsal obyektlərinin fəaliyyəti şəhərdə daimi iş yerlərinin yaranmasına imkan verib. Qərb Sənaye Parkının formalaşdırılması isə Gəncənin uzunmüddətli iqtisadi inkişaf strategiyasının əsas sütunlarından biri kimi dəyərləndirilir.

2025-ci ildə sosial sahədə görülən işlər şəhər sakinlərinin rifahının yüksəldilməsinə yönəlib. Şəhid ailələri və müharibə iştirakçılarına göstərilən diqqət davamlı xarakter daşıyıb, sosial dəstək tədbirləri ünvanlı şəkildə həyata keçirilib.

Məşğulluğun artırılması məqsədilə əmək yarmarkaları təşkil olunub, özünüməşğulluq proqramları icra edilib. Bu tədbirlər sosial balansın qorunmasına xidmət edib.

İl ərzində təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tədbirlər görülüb. Məktəblərdə tədris şəraitinin yaxşılaşdırılması insan kapitalının inkişafına yönəlib.

## Şəhər regional mərkəzə çevrilir

III MDB Oyunlarının Gəncədə keçirilməsi şəhərin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayıb. Bu tədbir Gəncənin böyükmiqyaslı layihələri qəbul etmək imkanını nümayiş etdirib.

2025-ci ilin nəticələri Gəncənin gələcək inkişaf xəttini daha aydın şəkildə göstərir. Şəhər tədricən güclü regional mərkəzə çevrilir. İnfrastrukturun yenilənməsi, sənaye parklarının genişləndirilməsi, nəqliyyat sisteminin təkmilləşdirilməsi bu prosesi sürətləndirir.

Gələcəkdə Gəncə iqtisadi baxımdan sənaye, xidmət və innovasiya sahələrinin balansı üzərində qurulacaq. Sosial sahədə insan kapitalının inkişafı əsas prioritet olaraq qalacaq. Şəhərsalma baxımından isə Gəncənin böyüməsi planlı və nəzarətli şəkildə həyata keçiriləcək.

Ekoloji baxımdan "yaşıl şəhər" konsepsiyası inkişafın əsas istiqamətlərindən biri olacaq. Tarixi və mədəni irsin qorunması isə modernləşmə prosesinin ayrılmaz hissəsi kimi saxlanılacaq.

2025-ci il Gəncə üçün yekun deyil, uzun yolun mühüm mərhələsidir. Şəhər bu gün dəyişir, yenilənir və gələcəyini planlaşdırır. Bu inkişaf prosesi təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında hiss olunur.

Gəncə qarşıdakı illərdə daha rahat, daha müasir və daha yaşanıqlı şəhər kimi formalaşmaq yolundadır. Bu yol tələsik deyil, düşünülmüş addımlarla gedilir. Məhz buna görə də Gəncənin gələcəyi artıq bu gün görünür.

Bütün bu sadalananlar onu göstərir ki, Gəncədə həyata keçirilən inkişaf prosesi təsadüfi qərarların nəticəsi deyil. Bu, uzunmüddətli strategiyaya əsaslanan, mərhələli şəkildə icra olunan və real nəticələr verən bir xəttdir. Şəhərin siması dəyişdikcə, bu dəyişikliklər insanların həyat tərzində, gündəlik rahatlığında və şəhərə münasibətində də öz əksini tapır.

Ən önəmlisi isə odur ki, Gəncənin inkişafı yalnız bugünkü ehtiyaclara hesablanmayıb. Atılan addımlar gələcək nəsillərin maraqlarını da nəzərə alan, dayanıqlı və balanslı şəhər modelinin formalaşdırılmasına xidmət edir. İnfrastrukturun yenilənməsi, sosial sahəyə diqqət, sənaye və məşğulluq imkanlarının genişləndirilməsi bu modelin əsas sütunlarını təşkil edir.

Bu gün Gəncə artıq təkcə tarixi keçmişi ilə deyil, formalaşmaqda olan müasir şəhər siması ilə də seçilir. Şəhər sakinləri bu dəyişikliklərin birbaşa iştirakçısına çevriliblər. Məhz buna görə də Gəncədə baş verən inkişaf prosesləri statistik rəqəmlərdən daha çox, insanların həyatında hiss olunan reallıqlar kimi dəyərləndirilir.

Deməli, Gəncə qarşıdakı illərdə də inkişaf yolunda ardıcıl və inamlı addımlarla irəliləyəcək. Bu yol düşünülmüş qərarlarla, real ehtiyaclara söykənən yanaşma ilə davam etdirilir və artıq bu gün öz nəticəsini göstərir.

***Hm let QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

*Seyfəddin ALTAYLI – 75*

# Ortaq türk dilinə aparan yol milli təhsildən keçir

## *Böyük Atatürk deyirdi ki, türklər gerçək tarixlərini tanıdıqca özlərini daha qüdrətli hiss edəcəklər*



**XX əsrin sonlarında Azərbaycan müstəqilliyinin dünya miqyasında tanıdılmasında fədakarlıq göstərmiş şəxslərdən biri Türkiyənin İğdır şəhərində doğulub-böyümüş soydaşımız Seyfəddin Altaylıdır. 90-cı illərin əvvəllərində Azərbaycanı Tanıtma Dərnəyini yaradan və ona rəhbərlik edən Seyfəddin bəy 30 il çalışdığı TRT-nin “Türkiyənin səsi” radiosu vasitəsilə ana Vətəninin təbliğatını aparıb. Məhz onun təşəbbüsü ilə bu radioda Azərbaycan türkcəsində yayım redaksiyası qurulub və o, bu masanın ilk rəhbəri olub. 2008-ci ildən 2018-ci ilədək hər gün canlı yayımlanan “Qorqud ata” verilişi də Seyfəddin bəyin ideyası idi. Azərbaycanın haqq davası uğrunda mübarizəni həyat amalına çevirən 75 yaşlı dilçi-türkoloq, filologiya üzrə fəlsəfə doktoru 10 ildən çoxdur ki, Bakı Avrasiya Universitetində dərs deyir. Onunla söhbətimiz Türk dünyasının birliyinə aparan yol, ortaq dil və kimlik məsələləri ətrafındadır.**

**– Seyfəddin bəy, 2025-ci il oktyabrın 6–7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12-ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışı öz əksini tapdı. Bu təşəbbüsü irəli sürən Azərbaycan Prezidenti İlham Əliyev Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam verdi. Söhbətimizə bu təşəbbüsdən və yubiley tədbirindən başlayaq.**

– Azərbaycan Türk dünyasının birliyi və inkişafı naminə böyük töhfələr verir. Ana Vətənim Azərbaycanı sevən Türkiyə vətəndaşı olaraq bu təşəbbüsə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. O, birincisi, otuz il işğal altında qalan torpaqları yağıdan azad elədi. İkincisi, indi biz Zəngəzur dəhlizinin açılacağından danışırıq. Bunlar heç də adi hadisələr deyil, bizim illərlə xəyal etdiyimiz Turan dünyasına aparan yoldur. Deməli, bu yolun memarı İlham Əliyevdir. Onun Birinci Türkoloji Qurultayın yüz illiyinin geniş miqyasda qeyd olunması barədə sərəncamı Türk dünyası üçün taleyüklü və olduqca əhəmiyyətlidir. Amma razılaşarsınız ki, Azərbaycanı, Türkün birliyini gözləri götürməyən qüvvələr də var. Onlar xaricdən bu təşəbbüsə qarşı çıxışlar edə bilərlər. Bu qüvvələr həm Qərbdə, həm də Şərqdə var. Amma Azərbaycan Prezidenti siyasi iradə və qətiyyət göstərərək, bəyan etdi ki, bu yubiley yüksək səviyyədə, təmtəraqlı şəkildə qeyd olunacaq. Bu mövzuda Azərbaycan Dövlət Pedaqoji Universitetində keçirilən tədbirdə çıxışımda da bildirdim ki, Azərbaycan, Anadolu və Asiya bizim əzəli və əbədi yurdumuzdur.

**– Əslində, yubiley tədbiri ideyasını Türk dünyasının gələcəyinə ünvanlanan mesaj kimi də dəyərləndirə bilərik. Siz o gələcəyi necə təsəvvür edirsiniz?**

– Bu sözləri on üç yaşında ülkü ocaqlarına daxil olmuş və bu gün də həmin yolu davam etdirən birisi kimi deyirəm: iyirmi birinci əsrdə Türk dünyasının intibahı başlayır. Bunu ağıl və məntiqlə dərk etməli, gələcək nəsilləri yüz, iki yüz il bundan sonrakı reallığa hazırlamalıyıq. Gələcəyə hazırlıq isə yalnız elm və tədrislə mümkündür. Biz Avropadan niyə geri qaldıq? Şərqdə intibah eramızdan əvvəl beşinci yüzillikdə başladı, on beşinci əsrə qədər davam etdi. Məhz bu əsrdə Şərqdə renessans dayandı, Qərbdə başladı. Onlar inkişafa mütəxəssislər yetişdirməklə, kadrların hesabına nail oldular. Arxasınca maarifləndirmə çağı gəldi. Bu proses isə özü ilə sənaye inqilabını gətirdi. Son nəticədə dünyanın bir nömrəli supergücü olan Osmanlı imperiyasını diz çökdürdülər. Bunlar tarixin bizə keçdiyi dərslərdir. Məhz bu tarixdən ibrət götürərək gələcəyimizə yön verməliyik. Tarix ondan dərs alınanda tarix, alınmayanda isə nağıl olur.

**– Elə 100 il əvvəl Türkolji Qurultayın əsas tezislərindən biri maarifləndirmə yolu ilə birləşmək və güclənmək idi. Digər tezis bu gün də aktuallığını qoruyub saxlayan Türk kökənli ölkələr və xalqlar üçün ortaq dil məsələsidir. Bu məsələnin optimal həll varantını necə görürsünüz?**

– Burada söhbət ortaq türkcədən deyil, ortaq ünsiyyət vasitəsindən getməlidir. Mən ömrümün otuz ilini üçcildlik “Azərbaycan türkcəsi” lüğətinin hazırlanmasına həsr etmişəm. 2015-ci ildən Azərbaycanda yaşayıram, Bakı Avrasiya Univertsitetində dərs deyirəm. Keçən ilin yayında dil qurumunun başqanı ilə görüşdüm. Həmin lüğətin bütün tirajı satılıb və əlavə çapa ehtiyac yaranmışdı. Təkrar nəşrini təklif edəndə soruşdular ki, lüğətə əlavələrin varmı? Dedim bəli, var. Üççildlikdə 90 minə yaxın söz vardı, bunun üzərinə 13 min də əlavə elədim. Yəqin bu rəqəm yenə artacaq. Bunu ona görə söyləyirəm ki, Azərbaycanda bir çox yer adlarının etimologiyasını və mənasını araşdırmışam. Misal üçün Padar kəndi. Bu adın mənasını heç padarlıların özləri də bilmirlər. Orxan-Yenisey abidələrində yazılır ki, səkkiz oğuz, otuz tatar, on uyğur boyları mövcuddur. Həmin on uyğur boyundan altıncısının adı padardır. Yəni padarlılar uyğur kökənlidirlər. Borçalıların böyük əksəriyyəti qıpçaq türkləridir. Gəncəlilər oğuzlardı, Qubada kəngərlilər var. Sözümün canı odur ki, bu tayfaların hər biri öz dialektində danışır. Bəzən bir kəndin dialekti ilə digər kəndin dialekti uyğun gəlmir. Yaxınlıq olsa da, arada fərqlilik var. Dialektlərdə bizim mifoloji tariximiz yaşayır. Atalar sözlərimiz, idiomatik ifadələr var ki, minillikləri aşıb günümüzə gəlib çıxıb. Buna görə də ortaq türkcə deyəndə yerli dialektlərin aradan qalxması nəzərdə tutulmur. Mən türk ellərinin ortaq ünsiyyət dilinin yerli dialektləri öldürməsinə qarşıyam. Amma ümumi ünsiyyət dilinin olması vacibdir.

**– Türk dünyasının Folklor Akademiyasının yaradılması təşəbbüsünü irəli sürmüsünüz. Sizcə, həmin akademiya ortaq türkcənin formalaşması istiqamətində hansı işləri görə bilər?**

– Folklor ayrıca götürülmüş bir xalqın yemək mədəniyyətindən tutmuş geyiminə, süfrə arxasında əyləşmək ədəbindən başlamış dəfn adətinə qədər hər şeyi əhatə edir. Bu səbəbdən Türk dünyasının folklorunu özümüz müfəssəl şəkildə öyrənməli, arxeoloji qazıntıları özümüz aparmalıyıq. Aşkara çıxardığımız dəfn ayininin şərhini verməliyik. Nə yazıq ki, bugünədək bizim tariximizi özgələr yazıb. Mənə görə məktəblərimizdə ortaq dil, tarix, ədəbiyyat, coğrafiya, diyarşünaslıq, folklorla bağlı ortaq dərsliklərimiz yaradılmalı və məktəblərdə tədris edilməlidir. Ortaq dil türkdilli xalqlar arasında bağları möhkəmləndirməyə xidmət edər. Xalqlarımızın bir-birinə duyduğu qardaşlıq sevgisinin rəmzləri 1918-ci ildə Anadoludan qardaşlarına köməyə gələn, Azərbaycanda şəhid düşmüş türkiyəli mehmetciklər və Çanaqqalada qardaşları ilə çiyin-çiyinə döyüşərək canını fəda etmiş azərbaycanlı mehmetciklərdir. Amma bu gün ortaq dərsliklər olmadan vətəndaşlarımız bu iki coğrafiya və orada yaşayan xalqlarla bağlı məlumata malik olmayacaqlar. Əgər Bakı, Gəncə, Lənkəran, Xaçmaz, Ankara, İstanbul, Hakkari, İğdır və Ədirnənin küçələrində hər hansı insandan Türkiyə və Azərbaycanla bağlı soruşduqda, o, sizə doğru-düzgün cavab verə bilmirsə günah onun deyil. Bir millətin iki dövləti bu məsələni birdəfəlik həll etməyin yollarını axtarıb tapmalıdır.

**– 2008-ci ildən 2018-ci ilədək TRT-nin “Türkiyənin səsi” radiosunda canlı yayımlanan “Qorqud ata” verilişinin əsas missiyası Azərbaycan türkcəsini Türk dünyasına tanıtmaq idi. Türkoloji Qurultayın yubileyi ilə bağlı “Qorqud ata” verilişinin, bu dəfə təkcə Azərbaycan türkcəsində deyil, türkdilli xalqların dilində yayımının bərpası ideyasına necə baxırsınız?**

– Həmin layihəyə başlayanda mən məhz bu ideyanı nəzərdə tuturdum. Azərbaycandan sonra efirə Türkmənistanı, Özbəkistanı, sonra Qazaxıstanı, Qırğızıstanı qoşmağı düşünürdüm. Bu xalqların hər biri öz dillərində proqram hazırlayıb yaysınlar. Yəni bu verilişdə səslənən informasiyaya, söhbətə, mahnıya qulas asanların qulaqları o səslərə öyrəşəcəkdi. Beləliklə, bu xalqlar bir-birini asanlıqla başa düşəcəkdilər. Amma nə yazıq ki, o möhtəşəm layihəni bağladılar. İndi o adamlar “Qorqud ata”nı efirdən silməklə nə itirdikləri barədə düşünsünlər. Bir neçə misal çəkmək istəyirəm. O zaman zabitimiz Ramil Səfərov məlum hadisəyə görə Macarıstan həbsxanasında yatırdı. Müsahibə üçün onun yanına gedən bizim jurnalistlərdən biri Ramildən Azərbaycan üçün darıxıb-darıxmadığını soruşur. O da cavabında deyir ki, xeyr, darıxmıram, özümü Azərbaycandan ayrı hiss etmirəm, çünki hər gün radioda bir saat “Qorqud ata” verilişinə qulaq asıram. Hind okeanında üzən gəmidən, Kanadadan, Norveçdən bizə məktub yazırdılar ki, qulağımız Azərbaycan türkcəsini eşidəndə fövqəladə hisslər keçiririk, sevincdən kövrəlirik. Mənə görə, radio televiziyadan daha önəmlidir. Dağda, aranda, dünyanın istənilən nöqtəsində radionu dinləyə bilərsən, amma televiziyanın bu imkanı yoxdur. Buna görə də “Qorqud ata” yenidən efirə qayıtmalıdır.

**– Türk dünyasının birliyi – Turan ideyasını böyük Mustafa Kamal Atatürk hələ 1933-cü ildə xatırlatmışdı. Ulu öndər Böyük Millət Məclisindəki çıxışında sovetlər biriliyinin ona qədərki imperiyalar kimi dağılması ehtimalından danışarkən bu coğrafiyada yaşayan türkdilli xalqlara sahib çıxmağa hazır olmalıyıq demişdi...**

– O da olacaq. Böyük Atatürk deyirdi ki, mən bir gün Türk dünyasının birləşəcəyinə inanıram: “Əgər o günü görməsəm, bunun xəyalı ilə gözlərimi yumacam”. Təkcə keçmiş sovetlər məkanında deyil, Hindistanda da bizim 100 milyondan çox soydaşımız yaşayır. Yenə Atatürkün sözlərinə istinad etmək istəyirəm. Deyirdi ki, türk övladı özünün gerçək tarixini tanıdıqca özündə daha böyük işlər görmək qüdrətini hiss edəcək. Təkrar edirəm, milli tariximizi özümüz yazmalı və nəsillərimizə tanıtmalıyıq. Özümüzü tanıdıqca daha böyük olacağıq. Bu gün Türkoloji Qurultayın 100 illiyini tarixiləşdirərək kimliyimizi, dilimizi gündəmə gətirmək kimi müqəddəs işi görən şəxsiyyətləri Türk dünyası heç vaxt unutmayacaq.

*

Onu da qeyd edək ki, 100 il bundan əvvəl Birinci Türkoloji Qurultayda səslənən əsas fikir və ideyaların gerçəkləşməsi az sonra bolşevik diktaturasının totalitar idarə üsulunun yaratdığı maneələrlə üzləşdi. Bu azmış kimi, qurultay nümayəndələrinin böyük əksəriyyəti 1937-ci il repressiyasının qurbanı oldu. Sanki əvvəlcədən düşünülmüş plan üzrə Türk dünyasının aydınlarına divan tutuldu, bütövlükdə türkologiyanın inkişafına ağır zərbə vuruldu. Yetmiş il ərzində totalitar rejim milli tariximizlə yanaşı, kimliyimizin, dilimizin sıradan çıxarılması, unudulması üçün bütün iyrənc üsullardan istifadə etsə də, istəyinə nail ola bilmədi. Ötən əsrin sonlarında əldə edilən milli müstəqillik türk xalqlarının mənəvi dirçəlişinə, özünüdərk prosesinə ciddi təkan verdi.

Prezidentin sərəncamında qeyd olunduğu kimi, artıq Türk dünyasının yenidən vahid ailə şəklində formalaşması istiqamətində ciddi uğurlar əldə edilib. XXI əsrin Türk əsri olacağına şübhə edənlərin sayı getdikcə azalmaqdadır. Türk Dövlətləri Təşkilatının üzvü olan ölkələr, eləcə də hələlik dövlətçiliyi olmayan türkdilli xalqlar arasında qardaşlıq ruhu daha da möhkəmlənir. Qarşılıqlı mədəni əməkdaşlıq əlaqələrinin dərinləşdirilməsinə doğru atılan addımların bundan sonra davamlı xarakter daşıyacağına əminik.

***Söhbəti yazdı:***
***İmran BƏDİRXANLI***

*I Türkoloji Qurultay – 100*

**Azərbaycan XX əsrin 20 – 30-cu illərində siyasi təqiblər meydanı, xalqımız taleləri yarımçıq qırılmış böyük zəka sahiblərinə divan tutulmasının şahidi olmuşdu. O dövrün ziyalıları arsında elə adlar var ki, onların bəlalı bioqrafiyası bütöv bir xalqın yaddaş dramının qanlı səhifələridir. Əli Cəlal oğlu Yusifzadə də məhz belə simalardan biridir. O, Parisdə ali təhsil almış, 8 dil bilirdi və buna görə çoxsaylı xalqları təmsil edən irimiqyaslı Bakı məxlisinin – I Türkoloji Qurultayın katibi seçilmişdi.**



Azərbaycan maarif və fikir tarixində iz qoymuş bu insan, sadəcə, toplantı katibi deyildi – o, bu qurultayda müxtəlif dillər arasında körpü salan, ideyalar arasında sərhədləri aşan bir ziyalı idi. Əli Yusifzadə, Avropa düşüncə tərzini Azərbaycan maarifçiliyi ilə birləşdirən nadir simalardan olmuşdur.

Onun həyatı bir tərəfdən elmə, dilə, mədəniyyətə sədaqətin, digər tərəfdən isə totalitar rejimin ziyalıya qarşı amansız münasibətinin aydın göstəricisidir. O, qələmi ilə millətin düşüncə sərhədlərini genişləndirənlərdən idi, lakin məhz bu sərhədləri genişləndirmək cəhdi onun üçün ölüm hökmünə çevrildi.

1900-cü ilin yanvarın 1-də Şuşa şəhərində doğulan Əli Yusifzadə qədim və nüfuzlu ziyalı nəslinə mənsub olub. Onun

# Bakı məclisinin başıbəlalı katibi

## *Əli Yusifzadə 8 dil bilməsi ilə qurultayın baş dilmancı olmuşdu*



atası Mirzə Cəlal Yusifzadə İbrahim xanın sarayında işləmiş Mirzə Yusifin nəslindən idi. Yusifzadələr ailəsi Şuşanın mədəni mühitində yetişmiş, maarifçilik ideyalarının daşıyıcıları olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra ailə Bakıya köçərək paytaxtın ictimai-mədəni həyatında fəal iştirak etmişdir.

Gənc yaşlarından ədəbi və publisistik yaradıcılığa maraq göstərən Əli Yusif “Yaşıl qələm” və “Ədəbiyyat cəmiyyəti” kimi maarifçi birliklərin üzvü olub. O, “Azərbaycan”, “İstiqlal”, “Bəsirət”, “Qurtuluş yolu” kimi dövrün qabaqcıl mətbuat orqanlarında müstəqillik və azadlıq ideyalarını tərənnüm edən məqalə və şeirlər dərc etdirmişdir. 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin açılışı münasibətilə “Azərbaycan” qəzetinin xüsusi buraxılışında onun “Prometey” adlı məqaləsi çap olunmuşdu.

Bu yazıda qədim yunan mifinin qəhrəmanı Prometeyin obrazı yeni istiqlal qazanmış Azərbaycanın azadlıq ruhu ilə eyniləşdirilmişdi. Müəllif istiqlal ideyasını bütün kiçik xalqlar üçün azadlıq arzusunun rəmzi kimi dəyərləndirir, Azərbaycanın milli dirçəlişinin əbədi olacağına inam ifadə edirdi.

Əli Yusifzadə Azərbaycanın görkəmli dövlət və ictimai xadimləri – Məmməd Əmin Rəsulzadə, Nəsib bəy Yusifbəyli, Əhməd Cavad, Cəfər Cabbarlı və digərləri ilə dostluq və əməkdaşlıq münasibətlərində olmuşdur. Onun adının Azərbaycan Parlamentinin 1919-cu il qərarı ilə Avropaya təhsil almağa göndərilən tələbələr siyahısına daxil edilməsi də təsadüfi deyildi.

Fevralın 11-də Parisə çatan tələbələri Sülh Konfransında iştirak edən Əlimərdan bəy Topçubaşov qarşılayır, tələbələr qarşısında çıxış edərək onlara uğurlar arzulayıb. Əli Yusifzadə Parisdəki Ali Siyasi Elmlər Akademiyasının Diplomatiya fakültəsində təhsil almış, Qərb siyasi elminin əsaslarını mənimsəmişdir.

1926-cı ilin fevral-mart aylarında Bakıda keçirilən I Türkoloji Qurultayda Əli Yusifzadə katib, atası Mirzə Cəlal isə tərcüməçi kimi iştirak etmişdir. Qurultayda türk xalqlarının dil, əlifba və mədəni birlik məsələləri müzakirə edilmiş, lakin sovet ideologiyasına zidd hesab edilən bu debatlar sonradan bir çox iştirakçılar üçün faciəli nəticələr doğurmuşdur.

Qurultayın başa çatmasından 3 gün sonra, 8 mart 1926-cı ildə Azərbaycan Fövqəladə Komissiyasının (KQB) əməkdaşı Vasinin əmri ilə Əhməd Hacınski, Dadaş Həsənov və Əli Yusifzadə evlərində axtarış aparılaraq həbs edilmişlər. Əli Yusifzadənin evindən bir sıra sənədlər müsadirə olunmuş, o, “xarici əlaqələrdə şübhəli fəaliyyət” və “millətçi təbliğat” kimi uydurma ittihamlarla istintaqa cəlb edilmişdir.

1927-ci il fevralın 28-də tamamlanan istintaq nəticəsində Əli Yusifzadə və digər bir neçə ziyalıya əvvəlcə güllələnmə hökmü oxunmuş, daha sonra bu cəza 10 il azadlıqdan məhrumetmə ilə əvəz olunmuşdur. Mart ayında o, digər azərbaycanlı məhbuslarla birlikdə Solovki arxipelağına – Ağ dənizin Oneqa körfəzində yerləşən ağır əmək düşərgəsinə göndərilmişdir.

Burada o, ziyalı və zabit məhbuslarla birgə Baltik-Amur kanalının çəkilişində işlədilmiş, dözülməz şərait, soyuq və aclıq içində yaşamağa məcbur olmuşdur. Lakin o, məhz bu ağır şəraitdə də mənəvi mübarizəsini davam etdirmişdir. Əli Yusifzadə Sovetlər Birliyində ilk dəfə siyasi məhbuslar tərəfindən təşkil edilən kütləvi aclıq aksiyasının təşəbbüskarlarından biri olmuşdur.

1927-ci ildə keçirilən bu aclıq 56 gün davam etmiş, nəticədə aclığın 53-cü günü hərbiçi, gəncəli İbrahim Axundzadə, Qori Müəllimlər Seminariyasının məzunu, şəkili Əlövsər (Əfsər) Nəcəfov aclıq zamanı, hərbiçi Xasay Kərimzadə, həkim Cahangir Ağayev aclığın doğurduğu xəstəlikdən dünyasını dəyişiblər.

O zaman sovet həbsxanalarındakı ilk siyasi aclıq aksiyasının xəbəri Bakıya da gəlib çatıb. Maksim Qorkinin və həyat yoldaşının Solovkiyə səfəri zamanı məhbuslar gizli şəkildə onlara məktub ötürməyə nail olmuş, bu məktub Stalinə çatdırılmış və bundan sonra düşərgədəki rejim qismən yumşaldılmışdır.

1935-ci ilin yanvarında azadlığa buraxılan Əli Yusifzadəyə Azərbaycana qayıtmağa icazə verilməmiş, o, Özbəkistana sürgün edilmişdir. Lakin sovet repressiyasının ikinci dalğası zamanı – 1937-ci ildə Daşkənddə yenidən həbs edilmiş və 18 avqust 1937-ci ildə güllələnmişdir. Onun məzarı naməlum qalmış, cəsədi gizlədilmişdir. Əli Yusifzadə yalnız 1992-ci ilin mayında – ölümündən 54 il sonra bəraət almışdır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

*Lütfi ZADƏ – 105*

# Elmi-texniki tərəqqidə inqilab yaratmış azərbaycanlı

**Dünya elmində Lütfi Zadə kimi tanınmış Lütfəli Rəhim oğlu Ələsgərzadə 1921-ci il fevralın 4-də Bakı qəzasının Novxanı kəndində anadan olub. ABŞ-ın dünyaca məşhur azərbaycanlı alimi, süni intellekt sahəsində öncül elm ocağı olan Kaliforniyanın Berkli Universitetinin ömürlük professoru seçilmiş bu dahi çağdaş texniki tərəqqidə inqilab yaratması ilə bəşəri zəka zirvəsinə yüksəlib.**



Doğma vətəni Azərbaycana dünya şöhrəti qazandırmış tanınmış soydaşımız bir çox xarici ölkə akademiyalarının üzvü, Yaponiyanın elm adamlarına verdiyi ən yüksək mükafatın – “Honda”nın laureatı, eləcə də Amerikadakı Azərbaycan diaspor təşkilatlarının fəxri sədri olub.

Gələcəyin böyük alimi 3-cü sinfə qədər Bakıdakı 16 saylı məktəbdə rus bölməsində oxuyub. Atası müəllim, yazıçı, müxbir Rəhim Ələsgərzadə Birinci Dünya müharibəsindən sonra bir müddət kibrit ticarəti ilə məşğul olub. Balaca Lütfəli isə sanki, ailənin bu kibrit qazancının qığılcımından aldığı alovla sonralar şöləsi dünyaya yayılan bir zəka ulduzuna çevrilib. Riyazi bilgiləri, saysız dəqiq informasiyaları fenomenal yaddaşında cəmləşdirib, yen-yeni kəşflər edə bilib.

Bəzi mənbələrə görə, 1931-ci ildə “yuxarı”dan belə bir göstəriş verilib ki, xarici ölkə əsilli, mühacir ailələr ya ölkədən çıxmalı, ya da sovet vətəndaşlığı almalıdır. Xəbəri eşidən Lütfi Zadənin atası, əslən ərdəbilli olan Rəhim kişi ailəsini götürüb İrana gedib. Lütfi Zadə təhsilini amerikalıların Tehrandakı Albors missioner məktəbində davam etdirib. Sonra Tehran Universitetində ali təhsil alıb.

Tale yolları onu 1944-cü ildə Amerikaya aparıb. İlk vaxtlar fotoqrafiya sənətinə meyillənib. Bir çox məşhurların, o cümlədən, ABŞ-ın sabiq prezidentləri Trumenin və Niksonun da portretlərini çəkib. 3 il sonra ailəsini də öz yanına gətirib. Valideynlərinin xeyir-duası ilə yəhudi əsilli Fenka ilə ailə qurub və bu izdivaç ömürlərinin sonuna qədər – 73 il davam edib. Ailənin Stella və Norman (bəlkə də Nəriman adını xatırlatdığı üçün bu ad seçilib) adlı 2 övladı dünyaya gəlib. Lütfi Zadə həyat yoldaşının vəfatından sonra cəmi 1 il yaşayıb.



Gənclik çağlarından güclü yaddaşı sayəsində elmə həmişəlik könül verən Lütfi Zadə Massaçusets Texnologiya İnstitutunda biliklərini daha da təkmilləşdirib. 24 yaşında Amerikanın ən gənc alimi olub. Möhtəşəm nəzəriyyələrə imza atıb.

...İlk dəfə onun adını ötən əsrin 70-ci illərinin sonunda Azərbaycan Neft-Kimya İnstitutu (indiki ADNSU) Sumqayıt filialının direktoru olmuş texnika elmləri doktoru, professor Rafiq Əliyevdən şəhər qəzeti üçün aldığım geniş müsahibədə eşitmişdim. Rafiq müəllim uzaq Amerikada yeni nəzəriyyə yaradan böyük azərbaycanlıdan iftixarla danışmışdı. Sonralar Lütfi Zadə barəsində müəyyən bilgilər əldə etdik, öyrəndik ki, o, 10 il Azərbaycanda yaşayıb, yəni elmin əngin səmasına Bakıdan pərvazlanıb. Daim şöhrət zirvəsində olsa da, doğulduğu, uşaqlığının keçdiyi bu şəhəri heç zaman unutmayıb.

Onun qeyri-səlis məntiqi obrazlı şəkildə belə izah edilir: “Aristotel məntiqi” ilə mühakimə yürüdən beyin dünyanı yalnız ağ və ya qara rəngdə qavrayır, “Zadə məntiqi” isə dünyanı bütün çalarları ilə qavramağa imkan verir. Çünki “Aristotel məntiqi” ikili (binar), “Zadə məntiqi” çoxmənalı (kəsilməz qiymətli) məntiqdir. Aristotelə görə, bir müddəa ya doğru, ya da yalan ola bilər. Lütfi Zadəyə görə, hər bir müddəanın doğruluq dərəcəsi doğru və ya yalan arasında (və ya sıfırla bir arasında) kəsilməz qiymətlər alır. “Zadə məntiqi”ndə real həyatı daha dürüst əks etdirmək qabiliyyəti var və tolerantlıq daha çoxdur.

İllər sonra mərhum jurnalist Möhbəddin Səmədlə uzaq Kaliforniyanın Berkli şəhərinə gedərək alim haqqında “Uzaq və yaxın Lütvü Zadə” adlı sənədli film çəkən keçmiş iş yoldaşım – telerejissor, Əməkdar incəsənət xadimi, həm də Lütvü Zadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvü Oqtay Babazadənin bu bəşəri insanın sadəliyi, səmimiliyi və qəlbən Azərbaycana bağlılığından ağızdolusu danışdıqlarını da xatırlayıram. Daha sonra Zadə Vətənə də gəldi, çox böyük təntənə ilə qarşılandı, ölkə başçısı onu ordenlə təltif etdi və alim Azərbaycana daha sıx bağlandı.

Onun yüksəliş yolu heç də asan olmayıb. Düz 20 il qeyri-səlis məntiq nəzəriyyəsi Amerika elmi ictimaiyyəti tərəfindən qəbul edilməyib. Hətta “New York Times” qəzetindəki bir məqalədə onun nəzəriyyəsinin yanlışlıqları haqda fikirlər yer alıb. Nəhayət, 1980-ci illərdə yapon alimləri tərəfindən böyük maraqla qarşılanıb.

Beləliklə, bu nəzəriyyə riyaziyyatın, kibernetikanın, informatika və hesablama texnologiyasının inkişafı tarixində yeni bir dövr açıb. Alimin qeyri-səlis məntiqi tədricən bütün dünyada elmə, texnika və texnologiyaya geniş nüfuz edib. Paltaryuyan maşınlardan tutmuş, avtomat sürücüyə kimi yüzlərlə, minlərlə sistemdə, qurğuda öz tətbiqini tapıb...

Xatırlayırıq ki, 2017-ci ildə 96 yaşında vəfat etmiş Lütfi Zadə ilə vida mərasiminə Prezident İlham Əliyev, dövlət və hökumət rəsmiləri, elm və mədəniyyət xadimləri geniş ictimaiyyət nümayəndələri gəlmişdi. Qədirbilən xalqımız onu haqq dünyasına sonsuz-sevgi-sayğı, hədsiz öyünclə yola saldı. Orada mərhumun yaxın qohumu (xalası qızı), tanınmış rejissor, Xalq artisti Cənnət Səlimova nümayəndə qismində çıxış etdi. Dünya şöhrətli alim I Fəxri Xiyabanda torpağa tapşırıldı.

Araşdırmaçı jurnalist Tahir Aydınoğlu bu möhtəşəm törəni tarixi hadisə adlandıraraq qeyd etmişdi ki, dünyaşöhrətli Lütfi Zadənin qürbətdə deyil, dünyaya göz açdığı Azərbaycanda dəfn edilmək vəsiyyəti onun əbədi ünvana məhz azərbaycanlı kimi köçməsi oldu. Çağdaş sənaye inqilabının yolunu nurlandıran qeyri-səlis məntiqin atasının müqəddəs məzarı isə artıq onun milli kimliyinin qəti təsdiqi, bu gerçəyin Azərbaycan torpağına vurulan möhürüdür. Həmkarımızın bu anlatması Lütfi Zadənin elmi varisi, onun Vətənlə əlaqəsinin canlı bağlantısını yaratmış, dahi azərbaycanlının elmi varisinə çevrilmiş AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin qəlbində təsəlli və məmnunluq yaratmışdı.

Lütfi Zadəyə böyük şöhrət qazandırmış qeyri-səlis məntiq nəzəriyyəsindən əlavə, onun başqa nəzəriyyələri də var. Sadəcə çoxluq arasında o qədər də məşhur deyil. Hətta geniş yayılan süni intellektin banisi olduğunu da bir çoxumuz son vaxtlar bilmişik. Fəxr ediləsi faktdır ki, Yaponiyanın “Mitsubishi”, “Toshiba”, “Sony”, “Canon”, “Sanyo”, “Nissan”, “Honda” və digər nüfuzlu şirkətləri öz fəaliyyətlərində qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanır. 10 il əvvəl Lütfi Zadənin kəşfləri əsasında yapon alimləri ilk dəfə olaraq süni-intellektə malik robot hazırlayıblar. Alter adlı həmin qeyri-adi robot Tokiodakı Beynəlxalq Elm Muzeyində sərgilənib. Onun kəşfləri Amerikanın “General Motors”, “General Electric”, “Motorola”, “Dupont”, “Kodak” şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur. Super dövlətin dünyaca tanınmış Milli Kosmik Tədqiqatlar Mərkəzi - NASA da Lütfi Zadənin nəzəriyyələrindən geniş istifadə edir.

Azərbaycan və dünya elminin inkişafındakı xidmətlərinə görə “Dostluq” ordeni ilə təltif edilmiş böyük alim öz mirasını layiqli davamçısı, tanınmış alim Rafiq Əliyevə bağışlayıb. O isə bu maddi sərvəti “Zadə irsi və süni intellekt” Assosiasiyasına hədiyyə edib. ADA Universitetində Lütfi Zadə adına təqaüd təsis edilib. Xətai rayonunda adına küçə var.

Ötən ay Bakıda Lütfi Zadə adına riyaziyyat-məntiq olimpiadası və məktəblilərarası fənn müsabiqələri keçirilib. Məqsəd məntiqi təfəkkürün inkişaf etdirilməsi, yaradıcı və fərqli düşünmə qabiliyyəti ilə seçilən şagirdlərin müəyyənləşdirilməsi və onlarla məqsədyönlü işlərin aparılmasından ibarət olub. Qaliblər Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) nəzdində fəaliyyət göstərən Beynəlxalq Olimpiadalar Mərkəzində hazırlıq prosesinə cəlb ediliblər. Onların arasından gələcəyin Zadələrinin yetişəcəyinə inam böyükdür.

***Əli NƏCƏFXANLI***
***XQ***

# MEDİA Müşahidə Şurasının iclası



**Fevralın 3-də Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının 2026-cı il üzrə ilk iclası keçirilib.**

Müşahidə Şurasının sədri Dağbəyi İsmayılovun rəhbərliyi ilə keçirilən görüşdə Müşahidə Şurasının üzvləri Vüqar Əliyev, Şəfəq Mehrəliyeva, Sevil Mikayılova, Elçin Şıxlı, agentliyin icraçı direktoru Əhməd İsmayılov və onun müavini Natiq Məmmədli iştirak ediblər.

Medianın İnkişafı Agentliyinin aparat rəhbəri Rəqsanə Kərimova qurumun 2025-ci il üzrə fəaliyyətinə dair hesabat təqdim edib. Hesabatda media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin və kommunikasiyaya məsul şəxslərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, cəmiyyətin media savadlılığının artırılması istiqamətində həyata keçirilən tədbirlər, xarici əlaqələrin qurulması və inkişafı ilə bağlı görülən işlər, təşkil edilən beynəlxalq tədbirlər barədə ətraflı məlumat verilib.

Sonra maliyyə və təminat departamentinin direktoru Orxan Hümbətzadə qurumun nizamnaməsinə uyğun olaraq, bütün fəaliyyət istiqamətləri əhatə edilməklə cari il üçün maliyyə planlaşdırması barədə ətraflı məlumat verib. Şura üzvləri 2026-cı il üçün nəzərdə tutulmuş büdcə çərçivəsində vəsaitlərin bölgüsü məqsədəuyğun və qənaətbəxş hesab ediblər.

Bununla yanaşı, müzakirələr zamanı media sahəsinin davamlı inkişafını təmin edəcək strateji layihələrin icrası, innovativ yanaşmaların təşviqi və mövcud resurslardan səmərəli istifadə imkanları geniş müzakirə olunub, bu istiqamətlər üzrə fikir mübadiləsi aparılıb.

***XQ***

# Aviasiya Akademiyasında “Fevral məruzələri”





**Milli Aviasiya Akademiyasında “Fevral məruzələri 2026: Aviakosmik məsələlərin həllində gənclərin yaradıcı potensialı” adlı XI beynəlxalq elmi-praktik gənclər konfransı öz işinə başlayıb.**

3 gün davam edəcək beynəlxalq konfrans aerokosmik sahədə gənc tədqiqatçıların yaradıcı potensialının dəstəklənməsi, innovativ yanaşmaların təşviqi və elmi əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm akademik platforma kimi çıxış edir.

Builki konfransda ümumilikdə 428 nəfər iştirak edir. Proqram çərçivəsində 276 elmi məruzə dinləniləcək. Konfransa ABŞ, Türkiyə, Almaniya, Koreya, Qazaxıstan, Rusiya, Özbəkistan və Qırğızıstan kimi ölkələrdən 45 nəfər tədqiqatçı qatılıb.

Konfransın geniş institusional əhatə dairəsi də diqqətəlayiqdir. Ümumilikdə, tədbirdə 39 müxtəlif yerli və xarici universitet, elmi-tədqiqat institutu, dövlət qurumu və aparıcı təşkilat təmsil olunub. Bu fakt “Fevral məruzələri”nin artıq regionun aparıcı gənclər elmi platformalarından birinə çevrildiyini göstərir.

Konfransı giriş sözü ilə açan birinci prorektor, professor Ədalət Səmədov MAA-nın rektoru, akademik Arif Mir Cəlal oğlu Paşayevin iştirakçılara salamlarını və təbrikini çatdırıb və MAA-nın son 30 ildə keçdiyi inkişaf yolu haqqında məruzə ilə çıxış edib.

Konfrans çərçivəsində 11 bölmə üzrə aerokosmik sahə, nəqliyyat, energetika, iqtisadiyyat, hüquq, fundamental elmlər və texniki inkişaf istiqamətlərində aktual problemlər müzakirə olunacaq.

Plenar iclasda Merilend Universitetinin (ABŞ) fəxri professoru akademik Roald Saqdeyev, Moskva Fizika-Texnika İnstitutunun professoru Emil Əhmədov, Helmholts Elmi-Tədqiqat Mərkəzinin (Almaniya) əməkdaşı, Dünya Azərbaycanlı Alimlər Birliyinin sədri, Azərbaycanın Əməkdar elm xadimi, professor Məsud Əfəndiyev və Piri Reis Universitetinin (Türkiyə) elmi işlər üzrə müşaviri, Beynəlxalq SARES cəmiyyətinin prezidenti, professor Hikmet Karakoç çıxış edərək aerokosmik elmin gələcək inkişaf perspektivlərini və MAA-da gənclərin innovasiyalara töhfəsini xüsusi vurğuladılar.

Milli Məclisin sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov çıxış edərək bildirib ki, Milli Aviasiya Akademiyası akademik Arif Paşayevin Azərbaycan xalqına verdiyi çox böyük bir töhfədir. Onun sözlərinə görə, Arif Paşayevin təşəbbüsü ilə keçirilən bu konfranslar silsiləsi məhz bu ehtiyaca cavab verir və eyni zamanda gənc nəslin düşüncəsinə elmin yaşaması zərurətini ötürür

ADA Universitetinin rektoru Hafiz Paşayev çıxış edərək bildirib ki, çox gözəl bir konfrans təşkil olunub və konfransın məzmunu olduqca düşünülmüş şəkildə hazırlanıb.

Hafiz Paşayevin sözlərinə görə, Arif Paşayev haqqında çox danışmaq olar. O, heç vaxt kiməsə əziyyət verməkdən xoşlanmayan, daim insanları və xüsusilə tələbələri ön planda tutan bir şəxsdir. Bugünkü çıxışında da bunu aydın şəkildə gördük. "Arif müəllim keçmişinə, həmkarlarına və ətrafındakı insanlara həmişə sadiq olub, onların maraqlarını qorumağa çalışıb. Bu baxımdan ondan öyrəniləsi çox şey var",- deyə H.Paşayev vurğulayıb. O, Arif Paşayev adından hər kəsə təşəkkür edib.

Konfrans proqramına elmi müzakirələrlə yanaşı “Fundamental elmlər və texniki inkişaf”, “Energetikanın müasir problemləri” mövzularında dəyirmi masalar, eləcə də “İdeyadan nəşrə – məqalə yazma bacarığı” və “Hava limanında yerüstü xidmətlərin mərkəzləşdirilmiş rəqəmsal idarəetmə sisteminin qurulması” mövzularında ustad dərsləri daxil edilib.

Bundan əlavə, tədbir çərçivəsində “Maliyyə uçotu” dərsliyi və “Auditdə iqtisadi təhlil” dərs vəsaitinin təqdimatı nəzərdə tutulub.

“Fevral məruzələri” beynəlxalq konfransı gənc tədqiqatçıların aerokosmik innovasiyalara töhfəsi baxımından MAA-nın elmi strategiyasının əsas istiqamətlərindən biri, həm də beynəlxalq elmi əməkdaşlığın inkişafında mühüm resursdur.

Konfransın sonunda Azərbaycan Respublikasının əməkdar artisti, pedaqoq, filologiya üzrə fəlsəfə doktoru Lalə Məmmədova iştirakçılara uğurlar arzuladı və kiçik konsert proqramı ilə çıxış edib.

***XQ***

*Araşdırma*

# Paytaxtda mikromobil nəqliyyatına geniş meydan açılıb

## *Lakin hərəkət düzgün nizamlanmır, faciəli qəzalar artır*

**Müasir şəhər nəqliyyatı sisteminin əsas prioritetlərindən biri tıxacların azaldılması, ətraf mühitə mənfi təsirlərin minimuma endirilməsi və qısa məsafələr üçün səmərəli alternativlərin yaradılmasıdır. Bu baxımdan mikromobillik – velosipedlər, elektrik skuterləri, mopedlər və digər kiçik fərdi nəqliyyat vasitələri paytaxtın nəqliyyat sistemində getdikcə daha çox yer tutur. Qlobal trendlər də mikromobilliyin hazırda şəhər mobilliyinin dayanıqlı inkişafının əsas sütunlarından birinə çevrildiyini göstərir.**

Son illər Bakıda bu istiqamətdə davamlı layihələr həyata keçirilib. Şəhər ərazisində fərdi mobil nəqliyyat vasitələrinin istifadəsini asanlaşdırmaq məqsədilə artıq 30 kilometrdən çox xüsusi zolaqlar salınıb, 48 nöqtədə isə mikromobillik vasitələri üçün dayanacaqlar yaradılıb. Bu infrastruktur isə alternativ nəqliyyat vasitələrinin təşviqinə, avtomobil asılılığının azaldılmasına və ekoloji baxımdan təmiz hərəkət mühitinin formalaşmasına müsbət təsir göstərib.



Paytaxtın mikromobillik sistemində xüsusi yer tutan və qısa məsafələr üçün ən çox seçilən innovativ nəqliyyat vasitələrindən biri elektrik skuterləridir. Skuter parklarının və dayanacaqlarının sayının getdikcə artması bu nəqliyyat növünə marağın yüksəldiyini göstərir. Elektrik skuterlərinin əsas üstünlüklərindən biri onların velosiped zolaqlarından istifadə imkanına malik olmasıdır ki, bu da hərəkətin daha təhlükəsiz və çevik təşkilinə əlverişli şərait yaradır.

Skuterlərə belə yüksək diqqət isə onu deməyə əsas verir ki, Bakıda mikromobilliyə tam keçid üçün güclü zəmin formalaşır. Belə ki, mobilliyin transformasiyası proqramı çərçivəsində mikromobillik infrastrukturu genişlənir, normativ-hüquqi baza təkmilləşir. Velosipedçilərin və elektrik mühərrikli kiçik nəqliyyat vasitələri istifadəçilərinin təhlükəsizliyi artıq “Yol hərəkəti haqqında” Qanuna və İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliklərlə tənzimlənir.

Hazırda Bakı şəhərinin 31 küçə və prospektində mikromobillik zolaqları mövcuddur. Qarşılıqlı əlaqəliyi təmin olunan həmin zolaqların yaxın perspektivdə 100 kilometrə çatdırılması nəzərdə tutulur. Bununla yanaşı, xüsusi yol nişanlarının quraşdırılması, bufer zonalarda təhlükəsizlik sədlərinin yaradılması diqqət mərkəzində saxlanılır. İşıqforlara mikromobillik istifadəçiləri üçün ayrıca bölmələrin əlavə olunması, velosiped və elektrik nəqliyyat vasitələrinin parklanma yerlərinin təşkil edilməsi ilə bağlı layihələrin icrası uğurla həyata keçirilir. Dənizkənarı Milli Park, “28 May” metro stansiyasının qarşısındakı meydan və digər piyada zonalarında mikromobillik üçün uyğun infrastruktur qurulması bu sahəyə yanaşmanın sistemli xarakter aldığını göstərir.

Görülən tədbirlərin nəticəsi olaraq hazırda Bakıda operatorlar vasitəsilə 5 mindən artıq mikromobillik vasitəsinin icarəyə verilməsi gerçəkləşdirilib, mikromobillik infrastrukturu qurulmağa başlayandan indiyədək isə bu nəqliyyat növlərinə 4 milyon 500 min dəfədən çox sifariş olunub. Mütəxəssislərin fikrincə, mikromobilliyin genişlənməsi ilə şəhər mərkəzində avtomobil sıxlığı da nisbətən azalıb. İstifadə statistikasında da müsbət göstərici qeydə alınıb. Belə ki, beynəlxalq təcrübədə bir velosipeddən gün ərzində orta hesabla 4-5 dəfə istifadə olunduğu halda, Bakıda bu göstərici 12-yə yüksəlib. Bu isə ekspertlər tərəfindən mikromobillik vasitələrinə real tələbatın mövcudluğu kimi dəyərləndirilib.

### Məsuliyyətsizlik, yoxsa nəzarətsizlik?

Şəhər mobilliyinin inkişafı fonunda müsbət tendensiyalarla yanaşı, ciddi narahatlıq doğuran məqamlar da nəzərə çarpır. Aparılan araşdırmalar göstərir ki, motosiklet və moped sürücülərinin yol hərəkəti qaydalarına etinasız yanaşması, sürət həddinin aşılması, təhlükəli manevrlər və yol şəraitinin düzgün qiymətləndirilməməsi ağır yol-nəqliyyat hadisələrinin əsas səbəbləri sırasındadır. Fiziki qoruyucu konstruksiyaya malik olmayan bu nəqliyyat vasitələrində hər bir səhv qərar ağır xəsarət və ya ölümlə nəticələnir.

Motosiklet və moped sürücüləri yol hərəkətinin ən həssas iştirakçıları olmaqla bərabər, qaydalara əməl etmədikdə yüksək risk yaradan kateqoriyaya da daxildir. Statistik təhlillər göstərir ki, məsuliyyətsiz davranış təkcə bu sürücülər üçün deyil, digər yol hərəkəti iştirakçıları üçün də ciddi təhlükə mənbəyinə çevrilir. Baş Dövlət Yol Polisi İdarəsinin məlumatına görə, ötən il motosiklet və moped sürücülərinin təqsiri ucbatından ölüm və xəsarətlə nəticələnən 43 yol-nəqliyyat hadisəsinin baş verməsi, 12 nəfərin həyatını itirməsi, 36 nəfərin xəsarət alması bunun bariz ifadəsidir.

**Yol hərəkəti üzrə ekspert Firuz Qəhrəmanlının** sözlərinə görə, moped və digər kiçik nəqliyyat vasitələri artıq bütün dünyada meqapolislərin ciddi probleminə çevrilib. Beynəlxalq təcrübənin öyrənilməsi və bu nəqliyyat vasitələrinin fəaliyyətinin qanunvericiliklə daha dəqiq tənzimlənməsi həm təhlükəsizliyin artırılması, həm də şəhər mobilliyinin balanslı inkişafı baxımından vacibdir.

F.Qəhrəmanlı, eyni zamanda, mövcud qanunvericilikdə ciddi boşluqların olduğunu da bildirir. Onun fikrincə, moped sürücülərindən sürücülük vəsiqəsi tələb edilməməsi sui-istifadə hallarına yol açır, sürət potensialı yüksək olan bəzi mopedlər isə nə radar, nə də kameralar tərəfindən qeydə alınır. Ekspert hesab edir ki, bu sahədə həm təbliğat gücləndirilməli, həm də normativ baza təkmilləşdirilməlidir.

**Yol hərəkəti üzrə ekspert Süleyman Abbasov** isə söhbət zamanı motosiklet və mopedlərin sayının artması fonunda yanğın risklərinə diqqət çəkdi. O, eyni zamanda, texniki istismar qaydalarının pozulmasının, elektrik sisteminə qeyri-peşəkar müdaxilələrin və keyfiyyətsiz ehtiyat hissələrinin yanğın hadisələrinə səbəb olduğunu bildirdi. Ekspert daha sonra sürücüləri texniki baxışlara vaxtında müraciət etməyə və təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırdı.

Beləliklə, mikromobillik Bakının nəqliyyat sistemində mühüm alternativ kimi formalaşsa da, onun davamlı və təhlükəsiz inkişafı üçün infrastrukturla yanaşı, qanunvericilik, nəzarət və maarifləndirmə tədbirlərinin paralel şəkildə gücləndirilməsi zəruridir. Yalnız bu halda mikromobillik şəhər üçün real üstünlüklər yaradan dayanıqlı nəqliyyat həllinə çevrilə bilər.

### Hüquqi tənzimləmə boşluğu

Hazırkı mərhələdə mikromobillik sahəsində ən ciddi problemlərdən biri normativ-hüquqi bazanın reallıqlara tam uyğunlaşdırılmamasıdır. Xüsusilə moped və elektrik skuterlərinin statusu qanunvericilikdə dəqiq təsnif olunmur. Mövcud vəziyyət isə aşağıdakı riskləri yaradır:

***– moped sürücülərindən sürücülük vəsiqəsi tələb olunmur;***

***– texniki baxış mexanizmləri yoxdur;***

***– sürət məhdudiyyətlərinə nəzarət edilmir;***

***– yol hərəkəti qaydalarının pozulmasına görə sanksiyalar zəifdir.***

Bu boşluqlar nəticəsində mikromobillik vasitələri bir tərəfdən “nəqliyyat”, digər tərəfdən isə “oyuncaq” kimi qəbul olunur ki, bu da təhlükəsizliyə birbaşa zərbə vurur.

Ekspertlərin fikrincə, mikromobilliyin təhlükəsiz və dayanıqlı inkişafı üçün qanunvericilik dəyişiklikləri həyata keçirilməli, bunun üçün, ilk növbədə, hüquqi təsnifat dəqiqləşdirilməlidir. “Yol hərəkəti haqqında” Qanunda elektrik skuteri, moped və yüngül elektrik nəqliyyat vasitəsi ayrı-ayrılıqda hüquqi anlayış kimi təsbit olunmalıdır. Bundan başqa, minimal sürücülük icazəsi mexanizmi yaradılmalıdır. Başqa sözlə, moped və yüksək sürət potensialı olan elektrik nəqliyyat vasitələri üçün sadələşdirilmiş sürücülük vəsiqəsi və ya onlayn test və praktiki təlim əsaslı icazə sistemi tətbiq edilməlidir.

Yuxarıda sadalananlarla yanaşı, texniki təhlükəsizlik tələblərinin gücləndirilməsi məqsədilə sürət məhdudlaşdırıcıların quraşdırılması, işıqlandırma və əyləc sistemlərinə standart tələblər qoyulması, kuryer fəaliyyətində istifadə edilən mopedlərə illik texniki baxışın keçirilməsi prioritet istiqamətlər kimi diqqətdə saxlanılmalıdır. Eyni zamanda, inzibati məsuliyyətin sərtləşdirilməsi, yəni dəbilqəsiz hərəkət, sürət həddinin aşılması, eləcə də piyada zonalarında qayda pozuntularının qarşısının alınması üçün sanksiyalar artırılmalı, təkrar pozuntular zamanı nəqliyyat vasitəsinin müvəqqəti müsadirəsi mexanizmi tətbiq olunmalıdır.

### Bəs xarici ölkələrdə...

Mütəxəssislər mikromobilliyin təhlükəsiz və dayanıqlı inkişafı üçün Avropa İttifaqı (Aİ) təcrübəsindən yararlanmağı da zəruri sayırlar. Məsələn, Aİ dövlətlərinin əksəriyyətində mikromobillik sərbəstliyi ilə yanaşı, sistemin ciddi qaydalarla tənzimlənməsinə daha çox üstünlük verilir. Konkret ölkələrə gəldikdə isə qeyd edək ki, Almaniyada elektrik skuterləri üçün maksimum sürət 20 kilometr/saat, eləcə də sığorta və xüsusi qeydiyyat nişanı tələb olunur.

Fransada piyada zonalarında skuterlərin hərəkəti qadağandır, cərimələr isə yüksəkdir. İspaniyada bələdiyyələr mikromobillik üçün ayrıca yol xəritələri hazırlayır və operatorları sərt lisenziyalaşdırır. Bu modelin əsas üstünlüyü ondan ibarətdir ki, mikromobillik təşviq olunur, amma, necə deyərlər, “başlı-başına buraxılmır”. Türkiyə modelində isə cərimə ilə bərabər, davamlı təbliğata xüsusi önəm verilir.

Bütün deyilənlərdən belə bir qənaətə gəlinir ki, Bakı üçün mikromobillik nəqliyyatın gələcəyidir. Lakin bu gələcəyin yalnız düzgün hüquqi çərçivə, güclü təhlükəsizlik mexanizmləri və səmərəli təbliğatla real üstünlüyə çevrilməsi mümkündür. Əks halda, ekoloji və rahat alternativ məqsədilə yaranan mikromobillik yeni risk mənbəyinə çevrilə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*



**Elməddin MURADLI,**
**nəqliyyat məsələləri üzrə ekspert**

Son vaxtlar açıqlanan rəsmi statistik göstəricilər moped və motosiklet sürücülərinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələrinin sayında artım olduğunu göstərir. Bu, xüsusilə paytaxt və iri şəhərlərdə getdikcə çoxalan bu tip nəqliyyat vasitələri sürücülərinin təhlükəsizlik qaydalarına əməl etməməsindən xəbər verir. Təbii ki, belə hal ciddi narahatlıq doğurur. Düzdür, çox vaxt ağır yol-nəqliyyat hadisələri ilə müşahidə edilən belə halların azaldılması istiqamətində müəyyən layihələr həyata keçirilir. Mövcud sahədə nəzərə çarpan qanunvericilik boşluqları mərhələli şəkildə aradan qaldırılır və yeni qaydalara əsasən, mopedlər də dövlət qeydiyyatına alınır, onlara dövlət nömrə nişanı verilir.

Moped idarə etmək üçün yaş həddi müəyyənləşdirilib, sürücülük hüququnun əldə olunması və digər prosedurlar tənzimlənir. Amma əvvəllər bu sahədə müəyyən boşluqlar mövcud idi və bu da xaotik vəziyyət yaradaraq ağır yol-nəqliyyat hadisələrinə səbəb olurdu. Xatırladım ki, moped və motosikletlərə kütləvi keçid əsasən məlum pandemiya dövründə başlayıb və bir çox insanlar bu nəqliyyat vasitələrinə ciddi yanaşmayaraq onları oyuncağa bənzədiblər. Əslində isə bu nəqliyyat vasitələri qanunla hüquq və vəzifələri müəyyən edilən real nəqliyyat növüdür və daha çox gənclər, eləcə də onların valideynləri bunu dərk etməlidirlər. Moped və motosiklet istifadə edən hər bir şəxsin yol hərəkəti qaydaları barədə müəyyən biliklərə malik olması zəruridir. Svetoforlar, yol ayrıcıları, piyadalar və səkilərlə bağlı anlayışın olmaması da ciddi risklər yaradır.

Bəzi sürücülər moped və motosikletləri velosipedin bir forması kimi qəbul edirlər, halbuki bu nəqliyyat vasitələri daha güclü, daha sürətli və daha təhlükəlidir. Sürücülər mütləq qoruyucu vasitələrdən istifadə etməlidirlər. Dəbilqə qanunla məcburi olsa da, dizlik, dirsəklik və digər qoruyucu vasitələrdən istifadə də vacibdir. Sərnişin daşınan zaman onun da dəbilqə ilə təmin edilməsi zəruridir.

Mopedlər üçün icazə verilən maksimal sürət saatda 50 kilometrdir. Lakin bəzi hallarda moped adı altında motosiklet istifadə olunur və bu nəqliyyat vasitələri yüksək sürətlə idarə edilir. Sürətə meyillilik isə qəza riskini dəfələrlə artırır. Xüsusilə yol ayrıcılarında və kəsişmələrdə kiçik bir diqqətsizlik belə faciə ilə nəticələnir.

Beləliklə, motosiklet və moped sürücüləri yol hərəkətinin ən həssas iştirakçıları sayılır. Onların yol hərəkətində digər iştirakçılarla eyni məsuliyyəti bölüşməsi ümumi təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır. Statistik təhlillər göstərir ki, məsuliyyətsiz davranış təkcə motosiklet və moped sürücüləri üçün deyil, digər yol hərəkəti iştirakçıları üçün də ciddi təhlükə mənbəyinə çevrilir.

Paytaxtda mikromobilliyin sürətlə inkişafı paytaxtın nəqliyyat modelində keyfiyyətcə yeni mərhələnin başlandığını göstərir. Velosipedlər, elektrik skuterləri, mopedlər və motosikletlər qısa məsafələr üçün əlverişli alternativ yaratmaqla yanaşı, şəhər mobilliyinin ekoloji və iqtisadi baxımdan daha səmərəli təşkilinə imkan verir. Lakin bu proses təkcə infrastrukturla deyil, hüquqi tənzimləmə və təhlükəsizlik mexanizmləri ilə müşayiət olunmadıqda ciddi risklər yaradır.

---

**Hindistan hökuməti 2026-2027 maliyyə ili üçün milli büdcə layihəsini açıqlayıb. Sənəddə müdafiə xərcləri üçün rekord həcmdə – 85,5 milyard dollar vəsait ayrılması nəzərdə tutulur. Parlamentdə çıxışı zamanı maliyyə naziri Nirmala Sitharaman əsas prioritetlər kimi hərbi aviasiyanın və donanmanın gücləndirilməsini, sərhədlərin mühafizəsini, eləcə də kəşfiyyat imkanlarının genişləndirilməsini qeyd edib. Büdcədə müdafiəyə xüsusi diqqətin artırılması Pakistanla münasibətlərdə gərginliyin dərinləşməsi, Çinlə davam edən strateji rəqabət və yeni regional böhran riskləri ilə izah olunur.**

# “Fillər ölkəsi” sürətlə silahlanır

Hindistanın müdafiə xərclərini rekord səviyyəyə – 85,5 milyard dollara çatdırması Cənubi Asiyada güc balansını ciddi şəkildə dəyişdirən addım kimi qiymətləndirilir. Bu rəqəm Hindistanın müstəqillik tarixində ən böyük hərbi büdcə olmaqla yanaşı, ölkənin regional və qlobal ambisiyalarının açıq göstəricisidir. Müdafiə xərclərinin 15 faiz artması Yeni Dehlinin həm Pakistan, həm də Çin istiqamətində eyni vaxtda hərbi qarşıdurmaya hazır olmaq strategiyasını gücləndirdiyini göstərir.

Müqayisə üçün qeyd etmək lazımdır ki, Pakistanın hərbi büdcəsi miqyas baxımından



Hindistanla müqayisədə kiçikdir. 2025–2026-cı maliyyə ili üçün Pakistanın müdafiə xərcləri təxminən 9–10 milyard dollar səviyyəsində qiymətləndirilir. Bu göstərici nominal ifadədə Hindistanın büdcəsindən azdır. Lakin Pakistan iqtisadiyyatının ölçüsü və dövlət büdcəsinin ümumi həcmi nəzərə alındıqda, müdafiə xərclərinin payı kifayət qədər yüksəkdir. İslamabad üçün ordu yalnız təhlükəsizlik institutu deyil, həm də siyasi və strateji sistemin əsas dayaqlarından biridir. Buna görə də Pakistan hərbi xərclərini məhdud iqtisadi imkanlara baxmayaraq, sabit səviyyədə saxlamağa və xüsusilə nüvə çəkindirməsi, raket proqramları və hava qüvvələrinin modernləşdirilməsinə üstünlük verməyə çalışır.

Hindistanın sürətlə silahlanması Pakistan üçün birbaşa təhlükəsizlik çağırışı kimi qəbul olunur. Yeni Dehlinin hərbi aviasiya, donanma və kəşfiyyat imkanlarını genişləndirməsi, xüsusilə də sualtı qayıqlar və uzaqmənzilli raket sistemlərinə yatırımlar İslamabadı cavab tədbirləri görməyə vadar edir. Bu isə klassik “təhlükəsizlik dilemması”nı dərinləşdirir: bir tərəfin təhlükəsizliyini artırmaq üçün atdığı addımlar digər tərəf tərəfindən təhdid kimi qəbul olunur və nəticədə silahlanma yarışı sürətlənir. Xüsusilə Kəşmir ətrafında vaxtaşırı baş verən hərbi insidentlər fonunda bu dinamika eskalasiya risklərini artırır.

Regional təhlükəsizlik baxımından daha ciddi məsələ ondan ibarətdir ki, Hindistan və Pakistan hər ikisi nüvə silahına malik dövlətlərdir. Son illərdə baş verən qarşılıqlı hava zərbələri və sərhəd toqquşmaları göstərdi ki, konvensional səviyyədə (Konvensional səviyyə (və ya konvensional müharibə/silahlar) termini hərbi və siyasi kontekstdə nüvə, kimyəvi və bioloji silahların istifadə olunmadığı döyüş və müdafiə mərhələsini ifadə edir-red.) başlayan gərginlik qısa müddətdə strateji risklər yarada bilər. Hindistanın hərbi büdcəsinin kəskin artımı Pakistanı daha çox asimmetrik cavab variantlarına – taktiki nüvə silahları, ballistik və qanadlı raketlərin sayının artırılması, eləcə də Çinlə hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsinə sövq edə bilər. Bu isə regionda sabitliyi möhkəmləndirməkdən çox, qarşılıqlı etimadsızlığı gücləndirir.

Digər tərəfdən, Hindistanın silahlanması təkcə Pakistan amili ilə izah olunmur. Çinlə strateji rəqabət Yeni Dehlinin hərbi planlaşdırmasında getdikcə daha mühüm yer tutur. Hind okeanında Çin donanmasının fəallaşması, Himalaylar boyunca hərbi infrastrukturun genişləndirilməsi Hindistanı dəniz və hava qüvvələrinə xüsusi diqqət ayırmağa məcbur edir. Bu kontekstdə Almaniya ilə sualtı qayıqlar üzrə planlaşdırılan 10 milyard dollarlıq müqavilə Hindistanın regional deyil, artıq qlobal dəniz gücü olmağa iddialı olduğunu göstərir.

Beləliklə, Hindistanın rekord hərbi büdcəsi Cənubi Asiyada qüvvələr nisbətini kəskin şəkildə dəyişir. Lakin bu dəyişiklik avtomatik olaraq regional təhlükəsizliyin möhkəmlənməsi demək deyil. Əksinə, Pakistanın məhdud imkanlar daxilində hərbi balansı qorumaq cəhdləri, Çin faktorunun əlavə olunması və nüvə çəkindirməsi regionu uzunmüddətli və çoxsəviyyəli risk zonasına çevirir. Bu şəraitdə silahlanmanın sürətlənməsi siyasi dialoq və etimad quruculuğu mexanizmləri ilə müşayiət olunmadıqca, Cənubi Asiyada sabitlik kövrək olaraq qalacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 21 (30990) 4 fevral 2026-cı il, çərşənbə

## İDMAN

### U-20 milli güləş çempionatı



**Dünən Gəncə şəhərində yunan-Roma və sərbəst güləş üzrə U-20 Azərbaycan çempionatının açılış mərasimi keçirilib.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, Gəncə İdman Sarayında təşkil olunan mərasimdə gənclər və idman naziri Fərid Qayıbov və digər çıxışçılar iştirakçılara uğurlar arzulayıb, ölkəmizin, eləcə də Gəncənin yetirmələrinin dünya güləş tarixində öz yeri olduğunu diqqətə çatdırıblar.

Rəqs ansamblının çıxışından sonra yunan-Roma və sərbəst güləş üzrə U-20 Azərbaycan çempionatına start verilib.

Çempionatda 500-ə yaxın idmançı qələbə uğrunda mübarizə aparır. Yarış fevralın 7-dək davam edəcək. İlk 3 yeri tutan güləşçilər Gənclər və İdman Nazirliyinin medal və diplomları, həmçinin Azərbaycan Güləş Federasiyası tərəfindən pul mükafatı ilə təltif ediləcəklər. Onlar milli komandanın tərkibinə cəlb ediləcək və beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək fürsəti qazanacaqlar.

Qeyd edək ki, həmin arenada fevralın 8-də qadın güləşi üzrə U-15 və U-17 ölkə birinciliyi, həmçinin fevralın 9-dan 13-dək yunan-Roma və sərbəst güləş üzrə U-17 Azərbaycan çempionatı da keçiriləcək.

### 8 cüdoçumuz Böyük Dəbilqə turnirində iştirak edəcək




**Beynəlxalq Cüdo Federasiyasının təqviminə əsasən, fevral 7–8-də Fransanın paytaxtı Parisdə Böyük Dəbilqə turniri keçiriləcək.**

Azərbaycan nüfuzlu yarışda kişilərdən ibarət milli komandanın baş məşqçisi Riçard Trautman, böyük məşqçilər Elxan Məmmədov və Slavko Tekiçin başçılığı altında 5 çəki dərəcəsində 8 cüdoçu ilə təmsil olunacaq.

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata Turnirdə Balabəy Ağayev (60 kiloqram), Nazir Talıbov, Ruslan Paşayev (hər ikisi 66 kiloqram), Zelim Tçkayev, Vüsal Qələndərzadə (hər ikisi 81 kiloqram), Əjdər Bağırov (100 kiloqram), Uşanqi Kokauri və Kənan Nəsibov (hər ikisi +100 kiloqram) çıxış edəcəklər.

Qeyd edək ki, "Böyük Dəbilqə" turnirində 82 ölkədən 526 cüdoçu qüvvəsini sınayacaq.

### Velosiped idmanına dəstək




**Azərbaycan Velosiped İdmanı Federasiyası (AzVİF) və Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası (AHİİTA) arasında Memorandum imzalanıb. Memorandumu AzVİF-in icraçı vitse-prezidenti Fikrət Hüseynov və AHİİTA-nın direktor müavini, direktor vəzifəsini müvəqqəti icra edən Fikrət Hacıyev imzalayıblar.**

Federasiyadan verilən məlumata görə, memorandumda tərəflərin birgə sosial proqramların icrası, velosiped idman növlərinin ölkə üzrə təşviqi, idman strukturlarından və qurğularından qarşılıqlı istifadə, müxtəlif tədbirlərin təşkili və digər məsələlər əksini tapıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2009-cu ildə Bakı şəhəri 306 nömrəli tam orta məktəb tərəfindən Məmmədova Anaxanım Mahir qızının adına verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.*

*✓ İctimai TV-nin təsərrüfat şöbəsinin qrim ustası Məhərrəmova Lalə Ələkrəm qızının adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*Siyasi qalmaqal*

# Epşteyn dosyesi: Yaqlandın "qara biznes"i

**Ceffri Epşteyn mövzusunun qlobal qalmaqala çevrilməsinin tək səbəbi onun azyaşlıları cinsi istismara cəlb etməsi ilə bağlı deyil. Diqqət çəkən məqam həm də müştərilər sırasında dünyanın ən ünlü simalarının görünməsidir. Britaniya kral ailəsinin üzvlərindən başlamış ABŞ prezidentlərinə, məşhur milyarderlərə qədər yüzlərlə şəxsin adı siyahıda keçir. Şahzadə, York hersoqu Endryu, prezident Bill Klinton, İtaliyanın baş naziri Silvio Berluskoni, milyarder İlon Mask... və digərləri Epşteynin iyrənc və qanunsuz xidmətlərindən yararlanmaqda ittiham olunurlar.**



Narahatlıq doğuran hal odur ki, bu şəxslər arasındakı təmaslar qanunsuz əyləncələrə qatılmaqla bitməyib. Münasibətlər həm də siyasi müstəviyə daşınıb. Ayrı-ayrı ölkələrin, dövlətlərin, bütövlükdə xalqların taleyini həll edən siyasi qərarlar verilərkən, "Epşteyn klubunda təmsilçilik" faktoru da nəzərə alınıb.

ABŞ Ədliyyə Nazirliyinin ötən həftə açıqladığı "Epşteyn sənədləri"ndə Avropa Şurasının 10 il müddətində baş katibi olmuş Torbyorn Yaqlandın da adı keçir. Sənədlərdən görünür ki, Yaqland Epşteynlə şəxsi əlaqələrə malik olub. 2012-ci ildə elektron poçt üzərindən Epşteynə yazdığı məktubunda Albaniyaya rəsmi səfərindən bəhs edib. Daha sonra qeyd edib ki, "Tiranada gözəl qızlar var". Bu ifadə mediada geniş müzakirə olunub. Yaqlanda hədyanlar yağdırılsa da, sonradan onun daha ciddi qüsurları tapılıb. Bəlli olub ki, AŞ baş katibi ayrı-ayrı ölkələrin rəhbərləri ilə Epşteyn arasında vasitəçilik edib və bunun üçün özünün diplomatik statusundan yararlanıb.

Sənədlərdən görünür ki, 2016–2018-ci illərdə Yaqland və Epşteyn arasında təmaslar daha intensiv olub və "diplomatik xidmətlər"dən kənar çıxıb. Məsələn, Epşteyn Yaqland vasitəsilə rusiyalı diplomatlarla əlaqələr qurub, onlarla işgüzar müzakirələr aparıb. Hətta prezident Vladimir Putinə qədər nüfuz edib. Son yayılan sənədlərdə Yaqlandın vasitəçilik missiyasını çox uğurla icra etdiyi görünür. 2018-ci ilin 27 iyun tarixli elektron məktubunda Epşteyn Yaqlanda deyir ki, "Lavrov mənimlə danışmaqla Trump haqqında faydalı məlumat əldə edə bilər". "The independent" yazır ki, Epşteyn Yaqlandın diplomatik statusundan bəs qədər yararlanıb.

## Moskvanın Yaqlanddan tələbi

2014, 2015 və 2018-ci illərdə rusiyalı diplomatlarla görüşə can atan Epşteyn onlarla "iqtisadi mövzularda söhbət etmək" istədiyini ifadə edib. Maraqlıdır, bəs rusiyalı diplomatlar bu görüşlərin qarşılığında Epşteyndən, xüsusilə Yaqlanddan nə istəyiblər? Təbii ki, bu bağlantılar Avropa Şurasının fəaliyyətində, yanlış siyasi qərarların qəbul edilməsində özünü büruzə verib.

Ukraynanın Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndəliyinin keçmiş rəhbəri Volodimir Ariev 2017-ci ilin oktyabr ayında bəyanat verərək, Turbyorn Yaqlandı açıq mətnlə tənqid edib: "Avropa Şurasının baş katibi Torbyorn Yaqland hamını təəccübləndirməkdə davam edir. Belə təəssürat yaranır ki, artıq kimin nə etdiyinin, nə dediyinin onun üçün heç bir əhəmiyyəti yoxdur. O, birmənalı şəkildə Rusiyanın tərəfini tutur, Ukraynaya arxa çevirir".

Ukrayna təmsilçisi açıqlamasında deyib ki, "AŞ baş katibi Torbyorn Yaqland Krımın Rusiya tərəfindən



ilhaq edilməsi faktına göz yumur. Bütün qüvvəsini sərf edərək, Rusiya nümayəndə heyətinə tətbiq edilən sanksiyaları aradan qaldırmağa, onları AŞPA-nın sessiya zalına qaytarmağa çalışır". Volodimir Aryevin açıqlamasından belə məlum olur, o, "Yaqlandın bu sirli davranışın səbəblərini anlamır. Avropa Şurasının "dəyərlər böhranı" keçirdiyini zənn edir".

Volodimir Aryevi təəccübləndirən "sirli davranış"ın səbəbləri indi ortaya çıxır. Bəlli olur ki, Avropa Şurasına 10 il müddətində rəhbərlik etmiş Torbyorn Yaqland Epşteyn işi üzərindən Rusiyaya bağlı olub. Şirnikləşdirmə və şantaj qarşılığında Rusiyanın diktəsinə boyun əyib. Avropa Şurasında Rusiyanın maraqlarına xidmət edən qərarların verilməsini təşkil edib.

Sabiq baş katibin ikiüzlü davranışı təkcə Ukraynaya qarşı sərgilədiyi münasibətdə üzə çıxmayıb. Onun Azərbaycana qarşı münasibəti də eyni qəbildən olub.

## Yaqland Azərbaycana qarşı çirkli oyunlarda

Avropa Şurası ilə Azərbaycan arasında ilk ciddi anlaşmazlıq 2015-ci ildə üzə çıxıb. Həmin dövrdə Şuranın baş katibi olan Torbyorn Yaqland "Azərbaycanda insan haqları üzrə birgə işçi qrup"dan çıxdığını bəyan edib. Ardınca AŞ-nin Nazirlər Kabinetinə müraciət edib ki, onun mövqeyini dəstəkləsin, tamamlayıcı addımlar atsın. Hansı ki, "Azərbaycanla birgə işçi qrup" məhz Torbyorn Yaqlandın təşəbbüsü və xahişi ilə yaradılıb. 2015-ci ildə isə o, qrupu qəfil tərk etməklə Azərbaycan ətrafında lüzumsuz söz-söhbətə yol açıb. Belə nəticə çıxdı ki, AŞ-nin baş katibi ikibaşlı oyun quraraq, ölkəmizin adını qaralamaq üçün zəmin hazırlayıb. Əvvəlcə "Azərbaycanda insan haqları üzrə birgə işçi qrup"un formalaşdırılmasına təşəbbüs göstərib. Daha sonra qrupdan çıxmaqla, insan haqlarının pozulması yönündə ittihamlar formalaşdırıb.

Torbyorn Yaqland Avropa Şurasının baş katibi postunda 2019-cu ilə qədər qalıb. Bu müddət ərzində Azərbaycanın adını qaralamaq üçün var gücü ilə çalışıb. 2017-ci ildə Azərbaycana qarşı sərt bəyanatlar verərək, diqqət çəkib. Azərbaycan Xarici İşlər Nazirliyi bu bəyanatlara əks reaksiya verərək, Yaqlandı ölkəmizin daxili işlərinə müdaxilə etməkdə qınayıb.

Yaqland bütün bunları nə üçün edib? Əslində Ukraynaya, Krıma qarşı münasibəti onun bütün siyasi mahiyyətini ortaya qoyur. "Epşteyn biznesi" üzərindən ələ alınmış Torbyorn Yaqland bütün postsovet məkanında Rusiyanın maraqlarını təmin etmək üçün çalışıb. Sovet imperiyasından qoparaq yenicə müstəqillik qazanmış, Qərbə yön almış dövlətləri, xalqları Qərbdən narazı salmaq, Rusiyanın himayəsinə sığınmağa məcbur etmək üçün hər cürə vasitəyə əl atıb. Öz məqsədinə çatmaq üçün Avropa Şurasını və baş katib postunu da alət edib.

Biz bu barədə hələ 4 il qabaq, "Epşteyn sənədləri" ictimailəşdirilməmişdən öncə yazmışdıq. "Avropa Şurası adından Azərbaycana qarşı qəbul edilən qətnamələrdə Rusiya izi" başlıqlı məqaləni dərc edərək, ziddiyyətli görünən məqamlara aydınlıq gətirmişdik. Həmin dövrdə Avropa Şurasının, baş katib Torbyorn Yaqlandın ziddiyyətli davranışlarının səbəbləri ehtimal görünürdü. Bu gün isə faktlarla təsdiqini tapır. ABŞ Ədliyyə Nazirliyinin açıqladığı "Epşteyn sənədləri" hər şeyi faktlarla, sübutlarla ortaya qoyur.

Avropa Şurasındakı çirkin oyunlar Torbyorn Yaqlandın gedişi ilə bitibmi? Təbii ki, yox. Görünən budur ki, vəziyyət düzəlmək əvəzinə, daha da pisləşib, Avropa institutları hər cürə çirkabın içinə düşüb.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***media eksperti***

## HAVA

# Külək əsəcək, yağış və qar yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə intensivləşəcəyi proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə sulu qara, qara keçəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə və gündüz 1-5 dərəcə isti olacaq. Atmosfer təzyiqi 758 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.



Havanın temperaturu gecə 2-6, gündüz 7-12 dərəcə isti, dağlarda gecə və gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## BİLDİRİŞ

Astara rayonu "Pensər" Sudan İstifadəedənlər Birliyinin 30 yanvar 2026-cı il tarixli növbədənkənar ümumi yığıncağının qərarına əsasən 2007-ci il martın 19-da Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran Bölgə Şöbəsi tərəfindən 0507-QA1-02 nömrə ilə qeydiyyata alınmış "Pensər" Sudan İstifadəedənlər Birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma prinsipi əsasında (birləşmə) formasında Kijəbə qəsəbə kənd icra nümayəndəliyinin ərazisində fəaliyyət göstərən və 2007-ci il fevralın 22-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran Bölgə Şöbəsi tərəfindən 0507-QA1-01 nömrə ilə dövlət qeydiyyatına alınmış Astara rayonu "Lovayın kənd" sudan istifadəedənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Pirallahı rayonundan Vasif İmanov Milli Məclisin sədri Sahibə Qafarovaya qardaşı

**QALİB BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov

**NADİR ABIYEVİN**

vəfatından kədərləndiyini bildirir və Abıyevlər ailəsinə dərin hüznlə başsağlığı verir.

---

BDU-nun mexanika-riyaziyyat fakültəsinin dekanlığı və kollektivi riyazi analiz və funksiyalar nəzəriyyəsi kafedrasının dosenti Fuad Abdullayevə anası

**GÜLLÜ MİRZƏYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universiteti biznesin iqtisadiyyatı və menecmenti kafedrasının müdiri professor Məhəbbət Məmmədov və əməkdaşlar professor Ədalət Əliyevə oğlu

**ELÇİN ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Səməd Məlikzadə alim-pedaqoq

**HƏMDULLA İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və İbrahimovlar ailəsinə dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2887
SİFARİŞ 182
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00